**AVRASİYA ƏMƏKDAŞLIQ FONDU**

# İCTİMAİ İŞTİRAKÇILIQ

- İctimai iştirakçılığın hüquqi əsasları
- İctimai Şuralar və digər ictimai iştirakçılıq formaları
- Təlim modulları
- Sənəd nümunələri
- Qanunvericilik



# İCTİMAİ İŞTİRAKÇILIQ

- ***İctimai iştirakçılığın hüquqi əsasları***
- ***İctimai Şuralar və digər ictimai iştirakçılıq formaları***
- ***Təlim modulları***
- ***Sənəd nümunələri***
- ***Qanunvericilik***

**Bakı-2017**

**Tərtib etdi: Sahib Məmmədov**

Bu vəsait Niderland Krallığının Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən və Avrasiya Əməkdaşlıq Fondu tərəfindən həyata keçirilən “Azərbaycanda İnsan Haqları, Demokratikləşmə və Yaxşı İdarəetmənin Təşviqi” Proqramı çərçivəsində çap olunmuşdur. Burada təsvir olunan məzmun və yerləşdirilən məlumatlar Niderland Krallığının Xarici İşlər Nazirliyinin və Avrasiya Əməkdaşlıq Fondunun rəsmi mövqeyini əks etdirməyə bilər.

©Avrasiya Əməkdaşlıq Fondu

# MÜNDƏRİCAT

**İCTİMAİ İŞTİRAKÇILIQ.......................................................... 4**

**AZƏRBAYCANDA İCTİMAİ İŞTİRAKÇILIQ ........................... 7**
Şuralar.............................................................................................. 12
İctimai müzakirələr və ictimai dinləmələr ........................................ 14
Hüquqi aktların layihələrinin ictimai müzakirəsi............................... 15
İctimai rəyin öyrənilməsi................................................................... 16
Yazılı Məsləhətləşmə ........................................................................ 17

**TƏLİM MODULLARI ................................................................. 18**
Modul 1. İctimai İştirakçılıq və onun qanunvericilik əsasları ............ 18
Modul 2. İctimai Şuralar və onların fəaliyyəti .................................. 23
Modul 3. İctimai şuraların təşkili ...................................................... 28
İctimai Şuranın seçkilərinin təşkili üçün sənəd nümunələri................ 35

**ƏLAVƏLƏR ............................................................................... 41**
İctimai iştirakçılığı təmin edən normativ-hüquqi aktlar...................... 41
İctimai iştirakçılıq haqqında Qanun................................................... 41
"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ............................. 55
İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə ............................................................................... 59
Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası ......................................... 67

# I. İCTİMAİ İŞTİRAKÇILIQ

İctimai iştirakçılıq vətəndaş cəmiyyəti təsisatları ilə hakimiyyət orqanlarının davamlı qarşılıqlı fəaliyyət prosesidir.

İctimai iştirakın təşkilinin əsas prinsipləri bunlardır: Əvvəla ictimai iştirakçılığın nə üçün zəruri olduğu bilinməlidir. İkincisi ictimai iştiraka cəlb olunmuş maraqlı tərəflərlə əks əlaqə mövcud olmalıdır.Üçüncüsü, müzakirə olunan proqrama (layihənin, qərarın, qanunun və s.) dəyişiklik etmək imkanı (alternativlik) olmalıdır. Dördüncüsü maraqlı tərəflər prosesin (müzakirənin) əvvəlindən cəlb olunmalıdır. Beşincisi, maraqlı tərəflər prosesə maksimum cəlb olunmalıdır. Altıncısı, zəruri məlumat kifayət qədər olmalıdır. Yeddincisi, prosesin açıq və nəzarət edilə bilən olması, məqsədlərin real olması və şəkkizincisi prosesin təşkili və onun nəticələrinə nəzarətin keyfiyyətli metodik baza əsasında təmin edilməsi[1].

İctimai iştirakçılıq müxtəlif ola bilər. Görkəmli tədqiqatçılar tərəfindən ictimai iştirakçılığın beş səviyyəsi müəyyən edilmişdir. Bunlar: **Məlumatlandırma, məsləhətləşmə, birgə qərar qəbuletmə, birgə fəaliyyət, yerli təşəbbüslərin dəstəklənməsidir.**

Vətəndaşlar və hakimiyyət orqanları birgə səy göstərməsə vətəndaş iştirakı modelinin müvəffəqiyyət qazanmasına nail olmaq mümkün deyil. Bu bəzən mərkəzi və yerli hakimiyyət orqanları üçün artıq xərclərə səbəb ola bilər. Lakin bunun müqabilində onlar, həmçinin, bir sıra müsbət nəticələr də gözləyə bilər.

---

[1] Общественное участие как необходимый компонент работы центров публичной политики.
https://www.civisbook.ru/files/File/Vinogradova_obsh.pdf

Həmçinin, yerli səviyyədə qərar qəbul etmə prosesində daha fəal iştirakını təmin edən praktiki həll yolları seçilmiş məmurların **həqiqətən də qanuni** yolla seçildiklərini sübut edəcək. Azərbaycanın "Bələdiyyələrin statusu haqqında" qanununda qeyd olunduğu kimi, yerli özünüidarəetmə əhaliyə "mühüm məsələləri müstəqil və azad şəkildə həll etmək bacarığını" verən bir sistemdir. Vətəndaş İştirakı Modeli vətəndaşlara və yerli liderlərə mühüm yerli məsələləri birgə həll etməyə köməklik göstərmək üçün hazırlanan metodologiya və vasitələri inkişaf etdirir[2].

Cəmiyyəti təmsil edən təsisatların qərar qəbuletmə prosesində iştirakı, ümumiyyətlə dövlət və özünüidarə orqanları ilə əməkdaşlığının müxtəlif səviyyələri vardır.

İlk növbədə vətəndaş cəmiyyətini təmsil edən təsisatların **məlumatlara çıxışı** təmin edilməlidir. İctimai iştirakçılıq prosesində zəruri məlumatların olması (məsələn qəbul olunacaq hər hansı qanunla bağlı əvvəlcədən məlumatlı olmaq) olduqca vacibdir. Dürüst məlumat olmadan ictimai iştirakçılıq prosesinə qoşulmaq və qərar qəbul etmə prosesinə təsir etmək mümkün deyil.

İctimai iştirakçılıqda növbəti səviyyə **məsləhətləşmədir.** Qərar qəbul edən və ya hər hansı fəaliyyəti həyata keçirən dövlət orqanı və ya yerli özünüidarə orqanı layihə ilə bağlı maraqlı tərəflərlə, o cümlədən vətəndaşları təmsil edən təsisatlarla və ekspertlərlə məsləhətləşmələr aparmalıdır. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində belə məsləhətləşmələrin bir neçə forması nəzərdə tutulur.

İctimai iştirakçılığın növbəti səviyyəsi maraqlı tərəflərlə, o cümlədən vətəndaş cəmiyyəti ilə **dialoq** aparılmasıdır. Yalnız

[2] Vətəndaş iştirakı üzrə təlimat kitabçası. Qeyri-Kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəz.

dialoq şəraitində cəmiyyətin maraqlarına uyğun qərarlar qəbul oluna bilər.

İctimai iştirakçılığın ən yüksək səviyyəsi isə **partnyorluq-dur.** Partnyorluq birgə qərar qəbul etmə və birgə fəaliyyətə gətirir. Bu zaman vətəndaş cəmiyyəti nəinki ictimai nəzarət funksiyalarını həyata keçirir, o həmçinin məsuliyyətin bölünməsində iştirak edir.



## II. AZƏRBAYCANDA İCTİMAİ İŞTİRAKÇILIQ

Qeyri-Hökumət Təşkilatlarının qərarların qəbulunda iştirak istiqamətində bir sıra ciddi əhəmiyyət kəsb edən fəaliyyətləri olmuşdur. "İctimai İştirakçılıq Haqqında" Qanun 01 iyun 2014-cü il tarixindən qüvvəyə minmişdir. Qanun QHT-lərin mərkəzi icra hakimiyyəti və yerli hakimiyyəti orqanlarında permanent şəkildə fəaliyyət göstərən ictimai şuranın yaradılmasını nəzərdə tutur. İctimai şuraya üzvləri QHT-lərin özlərinin toplantısında seçilir. Qanuna görə "*İctimai iştirakçılıq – dövlət və cəmiyyət həyatının müxtəlif sahələrində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində, ümumdövlət və yerli səviyyədə qərarların qəbulunda, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş mərkəzi icra hakimiyyəti orqanlarının (bundan sonra – mərkəzi icra hakimiyyəti orqanları), yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin təşkilində vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının bu Qanunla müəyyən edilmiş formalarda iştirakı, dövlət və yerli özünüidarəetmə orqanlarının ictimaiyyətlə məsləhətləşməsi və ictimai rəyin nəzərə alınmasıdır*"[3] Beləliklə QHT-lərin özləri tərəfindən formalaşdırılan İctimai Şuralar bütün səviyyələrdə ictimai nəzarətin təmin olunması və qərarların qəbulunda iştirak üçün mükəmməl mexanizm əldə etmişdir. Hazırda bir çox ölkələr bu qanuna model qanun kimi baxır.

Qanun qəbul edilənədək Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "**Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"**nda bütün mərkəzi icra hakimiyyəti orqanlarında vətəndaş cəmiyyəti nümayəndələrindən iba-

---

[3] http://e-qanun.gov.az/framework/26879

rət ictimai şuraların yaradılması üçün tədbirlər nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 27 aprel, 2016-cı il tarixli sərəncamı ilə təsdiq olunmuş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" ictimai iştirakçılıqla bağlı yeni fəaliyyətləri özündə ehtiva edir. MFP-nın 4.2. bölməsi "İctimai iştirakçılığın genişləndirilməsi" adlanır. Bu bölmədə "*İctimai şuraların fəaliyyətinin təşkil edilməsi, gücləndirilməsi və davamlılığının təmin edilməsi", "İctimai şuraların tərkibi və fəaliyyəti ilə bağlı rəsmi internet resurslarında ayrıca bölmələrin yaradılması və məlumatların mütəmadi yenilənməsi"* və "*İstehlakçıların hüquqlarının qorunması məqsədi ilə ictimai nəzarət mexanizmlərinin hazırlanması, bu məqsədlə yaradılmış qaynar xəttin fəaliyyətinin təkmilləşdirilməsi və bununla bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi*" kimi fəaliyyətlər nəzərdə tutulur.

Azərbaycanda vətəndaş cəmiyyətinin qərarların qəbulunda iştirakı, həmçinin bütün səviyyələrdə hakimiyyət orqanları ilə əməkdaşlıq və birgə fəaliyyət praktikası "İctimai iştirakçılıq haqqında" Qanunun qəbul olunması və qüvvəyə minməsindən əvvəl də olmuşdur. Bu iştirakçılıq həm qanunyaratma prosesində, həm də praktiki fəaliyyətlərdə mövcuddur. Vətəndaş Cəmiyyətinin qərarların qəbulunda iştirakına misal olaraq son illərdə QHT-lər tərəfindən hazırlanmış qanun layihələrini misal göstərmək olar.

Bu layihələr aşağıdakılar olmuşdur:

1.Könüllü Fəaliyyət haqqında- 2009-cu ildə Milli Məclis tərəfindən qəbul olnmuşdur. Azərbaycan Respublikasının Prezidenti qanunun tətbiqi ilə əlaqədər Fərman imzalamışdır.

2.İctimai İştirakçılıq Haqqında- 2013-cü ildə qəbul olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti qanunun tətbiqi ilə əlaqədar Fərman imzalamışdır.

3.Sosial Sifarişlər haqqında- layihə Milli Məclisə təqdim olunmuşdur.

4.Peşə Təşkilatları haqqında- layihə Milli Məclisə təqdim olunmuşdur.

Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurası vətəndaş cəmiyyətindən daxil olan təklif və müraciətlər əsasında bir sıra qanunvericilik aktlarında dəyişikliklərə nail olmuşdur.

Bunlar sırasında QHT-lərin icbari audit yoxlamasından keçməsinin ləğvi də vardır.

Şura ilə Milli Məclis arasında əməkdaşlıq memorandumu imzalanmışdır. QHT-lər qanun layihələrinin hazırlanması məqsədi ilə Milli Məclisdə yaradılan müxtəlif işçi qruplarda iştirak edirlər. Mərkəzi icra hakimiyyəti orqanları nəzdində yaradılan və tərkibi QHT nümayəndələrindən ibarət olan İctimai Şuralar sahəvi normativ hüquqi aktların hazırlanmasında fəal iştirak edir.

"İctimai iştirakçılıq haqqında" Qanunun tələblərinə uyğun olaraq 17 oktyabr 2014-cü il tarixində ölkə parlamenti –Milli Məclislə Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurası arasında Anlaşma Memorandumu imzalanmışdır. Memorandum ölkənin vətəndaş cəmiyyəti qurumlarına qanunyaratma prosesində daha fəal iştiraka imkan verəcəkdir. Milli Məclisdə qanunyaratma ilə bağlı yaradılan bütün işçi qruplarında ixtisalaşmış QHT-lərin iştirak imkanı olacaqdır.

Ölkədə vətəndaş cəmiyyəti ilə hakimiyyətin birgə fəaliyyət göstərdiyi dialoq platformaları mövcuddur.

Vətəndaş cəmiyyətinin təmsil olunduğu bir sıra platformalarda **birgə qərar qəbul etmə** və **birgə fəaliyyət** formaları mövcuddur ki, bu da ictimai iştirakçılığın ən yüksək səviyyəsi deməkdir.

Bunlara misal olaraq aşağıdakı ictimai iştirakçılıq modellərini göstərmək olar.

- Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası-tərkibi 11 nəfər. 8 nəfər QHT nümayəndəsi və 3 nəfər hakimiyyəti (Prezidentin adminstrasiyası, Ədliyyə və Maliyyə nazirlikləri) təmsil edir. QHT nümayəndələri müvafiq qruplar üzrə gizli səsvermə yolu ilə seçilir və prezident tərəfindən 4 il müddətində təsdiq olunur. Şura QHT-lərə maliyyə yardımı (qrantlar verir), onlara təşkilati, konsultativ və metodiki yardımlar edir;
- Mədən Hasilatında Şəffaflıq Təşəbbüsü üzrə Çoxtərəfli Qrup[4];
- Tərkibi hakimiyyətin 3 qolunun nümayəndələrindən və insan hüquqlarını müdafiə edən QHT nümayəndələrindən ibarət "İnsan hüquqları üzrə Birgə İşçi Qrup". Qrup 2005-ci ildən fəaliyyət göstərir və Azərbaycan dövləti ilə Avropa Şurasının birgə təşəbbüsü ilə yaranıb;
- Prezident yanında əfv məsələləri üzrə Komissiya (tərkibində QHT və KİV nümayəndələri təmsil olunur);
- Açıq Hökumətin Təşviqi üzrə hökumət-vətəndaş cəmiyyəti platforması- platformada 10 dövlət orqanı (o cümlədən Prezidentin adminstrasiyası) və arzu edən bütün QHT-lər təmsil olunur;
- Məhkumların vaxtından əvvəl azad edilməsi üzrə komissiya- Tərkibi Ədliyyə nazirliyinin nümayəndələri və QHT-lərdən ibarətdir;
- Mərkəzi və yerli İcra hakimiyyəti orqanları nəzdində İctimai Şuralar-İctimai İştirak haqqında qanuna uyğun olaraq seçki yolu ilə formalaşır;
- Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında "Orxus mərkəzi" və.s.

Son illərdə qəbul olunan bütün Dövlət proqramlarında, o cümlədən Milli Fəaliyyət Planları, strategiya və konsepsiyalarda vətəndaş iştirakçılığı mütləq qaydada nəzərdə tutulur;

---

[4] Azərbaycan hökuməti 2017-ci ilin mart ayında təşəbbüsü tərk etmişdir.

Ədliyyə Nazirliyində 10 ildən artıq fəaliyyət göstərən İctimai Komitə (tərkibi insan hüquqlarını müdafiə edən QHT-lərin nümayəndələrindən təşkil edilir) cəzaçəkmə müəsisələrində maneəsiz, xəbərdarlıqsız daxil olmaqla başçəkmələr həyata keçirmək, islah proseslərində iştirak etmək, məhkumlara hüquqi yardım göstərmək hüququna malikdir.

İctimai Şuraların yaradılmasına vətəndaş cəmiyyəti ilə əlaqələrin möhkəmləndirilməsi məqsədi ilə Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurası bir sıra Mərkəzi İcra Hakimiyyəti orqanları ilə əməkdaşlıq edir.

17 sentyabr 2014-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və QHT-lərə Dövlət Dəstəyi Şurası arasında birgə əməkdaşlığa dair Memorandum imzalanmışdır. Şura Nazilrliyin QHT-lər üçün sosial sifarişlərin verilməsi ilə bağlı həyata keçirdiyi tender proseslərində iştirak edəcək, nazirlik yanında İctimai Şuranın təşkilində iştirak edəcəkdir. Ümumiyyətlə nazirlik vətəndaş cəmiyyəti ilə hərtərəfli əməkdaşlıq etmək niyyətini bəyan etmişdir və Şura bu fəaliyyətdə nazirliyin işinə dəstək verəcəkdir.

Belə memorandumların digər mərkəzi icra hakimiyyəti orqanları ilə də bağlanması nəzərdə tutulur.

2006-cı ildə bir qrup QHT tərəfindən Koorrupsiya əleyhinə QHT-lərin məlumat və əməkdaşlıq şəbəkəsi təsis olunub. Şəbəkə bir sıra hökumət qurumları ilə memorandumlar imzalamış və əməkdaşlıq edir. Koorrupsiyaya Qarşı Mübarizə üzrə Dövlət Komissiyası da Şəbəkədə assossativ üzvdür.

"İctimai İştirakçılıq Haqqında" Azərbaycan Respublikası Qanunda ictimai iştirakçılığın formaları kimi **ictimai şuralar**, **ictimai müzakirələr, ictimai dinləmələr, hüquqi aktların layihələrinin ictimai müzakirəsi, ictimai rəyin öyrənilməsi** və **yazılı məsləhətləşmə göstərilir.**

## 2.1. İctimai Şuralar

"İctimai İştirakçılıq haqqında" Qanunun 1.0.3. maddəsinə görə ictimai şura "*Qanunda nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi üçün mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının yanında yaradılan məşvərətçi qurumdur*"[5]

İctimai şura 5-15 üzvdən ibarət tərkibdə İctimai İştirakçılıq haqqında qanunla müəyyən edilmiş tələblər nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əsasnaməyə uyğun olaraq vətəndaş cəmiyyəti institutları tərəfindən seçilir. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, yüksək mənəvi və əxlaqi keyfiyyətlərə, mərkəzi icra hakimiyyəti orqanı yanında yaradılan ictimai şuralara münasibətdə isə müvafiq sahə üzrə təcrübəyə və ya biliyə malik Azərbaycan Respublikasının 16 yaşına çatmış hər bir fəaliyyət qabiliyyətli vətəndaşı ictimai şuranın üzvü ola bilər. Qanunda ictimai şura daimi fəaliyyət göstərən təsisat kimi göstərilir. Ictimai şuranın səlahiyyət müddəti iki ildir, üzvləri gizli səsvermə yolu ilə seçilir və hər bir vətəndaş cəmiyyəti institutu ictimai şuranın üzvlüyünə yalnız bir namizəd irəli sürə bilər.

İctimai şuradakı fəaliyyətinə görə üzvlərə əmək haqqı, qonorar, kompensasiya və başqa ödənişlər verilmir. İctimai şuranın sərbəst fəaliyyəti üçün şərait yaradılmalıdır.

Qanun İctimai Şuraların səlahiyyətlərini və vəzifələrini, həmçinin seçilmə qaydalarını və idarəetmə qaydalarını da müəyyən edir. Qanuna əsasən ictimai şuraların əsas səlahiyyətləri aşağıdakılardır:

- Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından öz fəaliyyəti üçün zəruri olan məlumatları,

[5] http://e-qanun.gov.az/framework/26879

ictimaiyyətlə məsləhətləşmələr tələb edən məsələlər üzrə hüquqi aktların layihələrini almaq;

- İctimaiyyətlə məsləhətləşmələrin keçirilməsi barədə mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanına təkliflər vermək;
- Müvafiq ərazidə və sahədə dövlət siyasətinin formalaşması və həyata keçirilməsi barədə təkliflərlə çıxış etmək;
- Müvafiq sahədə dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi barədə hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı təkliflər vermək;
- İctimai əhəmiyyət kəsb edən məsələlərin həllinə dair vətəndaş cəmiyyəti institutlarının təkliflərini toplamaq, ümumiləşdirmək və mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanına təqdim etmək;
- Dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinin müzakirəsi üçün açıq tədbirlər (ictimai müzakirələr, dinləmələr, seminarlar, konfranslar, dəyirmi masalar və digər tədbirlər) təşkil etmək;
- İctimai rəyin öyrənilməsi üçün sorğular keçirmək və ya müvafiq təşkilatlara sorğu keçirilməsi barədə təkliflər vermək; hüquqi aktların layihələrinin ictimai müzakirəsini keçirmək;
- Şuranın işinə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının nümayəndələrini, vətəndaş cəmiyyəti institutlarını, ekspertləri və elmi təşkilatların, o cümlədən beynəlxalq təşkilatların nümayəndələrini, ayrı-ayrı mütəxəssisləri cəlb etmək;
- Öz məqsədlərini həyata keçirmək üçün daimi və müvəqqəti işçi orqanlar (komitələr, komissiyalar, ekspert qrupları, işçi qruplar və s.) yaratmaq.
- İctimai şura üzvlərinin mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının yerləşdiyi binaya müvafiq orqan tərəfindən müəyyən olunmuş qaydada daxil olmaq hüququ vardır.

İctimai Şuraların vəzifələri isə aşağıdakılardır:

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, habelə digər normativ hüquqi aktlara riayət etmək;
- Şuranın fəaliyyəti barədə əhalini məlumatlandırmaq;
- Öz fəaliyyətinə dair illik hesabat hazırlamaq və dərc etdirmək;
- Müzakirə olunan məsələlərə qərəzsiz yanaşmaq.

Qanun İctimai Şuranın iclasları, rəhbər orqanlarının seçilməsi, qəbul etdiyi aktlar və s. məsələləri də tənzimləyir.

Nazirlər Kabineti "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"-ni təsdiq etmişdir. Əsasnamədə ictimai şuraya seçkilərin keçirilməsi qaydaları müəyyən olunur.

## 2.2. İctimai müzakirələr və ictimai dinləmələr

İctimai İştirak haqqında Qanunda əks olunan ictimai iştirakçılıq formaları sırasında ictimai müzakirə və ictimai dinləmə də vardır. Qanunun 1.0.4. və 10.5. maddələr ictimai müzakirə və ictimai dinləməyə aşağıdakı anlayışları verir.

*"**İctimai müzakirə** – ictimai əhəmiyyətli qərarların qəbulu zamanı müvafiq məsələlər barəsində əhalinin müxtəlif təbəqələrinin təkliflərinin hazırlanması üçün aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətli nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin iştirakı ilə təşkil olunmuş yığıncaq"*

*"**İctimai dinləmə** – hüquqi aktların layihələrinə, dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinə dair ictimaiyyətlə məsləhətləşmələrin keçirilməsi və vətəndaşların məlumatlandırılması üçün aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətli nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin iştirakı ilə təşkil olunmuş yığıncaq"*[6]

---

[6] Yenə orda: http://e-qanun.gov.az/framework/26879

## 2.3. Hüquqi aktların layihələrinin ictimai müzakirəsi

"İctimai iştirakçılıq haqqında" Qanunda göstərilən ictimai iştirakçılıq formalarından biri də **Hüquqi aktların layihələrinin ictimai müzakirəsidir.**

Qanunun 1.0.7.-ci maddəsində hüquqi aktların ictimai müzakirəsi ilə bağlı anlayış verilmişdir.

"*Hüquqi aktların layihələrinin ictimai müzakirəsi – hüquqi aktların layihələrinin onların hazırlanmasında iştirak edən şəxslərin, habelə vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı vətəndaşların, ekspertlərin və mütəxəssislərin iştirakı ilə araşdırılması, təhlil edilməsi və qiymətləndirilməsi*"[7]

Nazirlər Kabineti "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" qərar qəbul etmişdir. Qaydalarda göstərilir ki, "*Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hüquqi aktlarının layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşəbbüsçüsü həmin mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyəti institutları, ictimai şuralar və ayrı-ayrı vətəndaşlar ola bilərlər*"[8]

Həmin qaydaların 1.3 və 1.4. maddələrində göstərilir ki, "*Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə həmin hüquqi aktların layihələrinə dair ictimaiyyətlə məsləhətləşmələrin keçirilməsi və vətəndaşların*

---

[7] Yenə orda: http://e-qanun.gov.az/framework/26879
[8] http://e-qanun.gov.az/framework/27804

*məlumatlandırılması məqsədi ilə aidiyyəti orqanların səlahiyyətli nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin iştirakı ilə keçirilir.*

*Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hüquqi aktlarının layihələrinə dair ictimai müzakirə həmin orqanlar tərəfindən ictimai əhəmiyyətli hüquqi aktların qəbulu zamanı müvafiq məsələlər barəsində əhalinin müxtəlif təbəqələrinin təkliflərinin hazırlanması məqsədi ilə aidiyyəti dövlət orqanlarının səlahiyyətli nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin iştirakı ilə keçirilir*”[9].

Qaydalarda dinləmələrin və müzakirələrin təşkili qaydaları əks olunmuşdur.

## 2.4. İctimai rəyin öyrənilməsi

Qanunda göstərilən ictimai iştirakçılıq formalarından bir də **ictimai rəyin öyrənilməsidir.**

Qanunun 1.0.6. maddəsi ictimai rəyin öyrənilməsinə belə anlayış verir: “*ictimai rəyin öyrənilməsi – dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinə dair əhalinin müxtəlif təbəqələrinin rəyinin öyrənilməsi məqsədi ilə sosioloji sorğuların və digər oxşar tədbirlərin keçirilməsi*”[10]

İctimai sorğular mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarə orqanları nəzdindəki ictimai şuralar və ya digər vətəndaş cəmiyyəti qurumları həyata keçirə bilər. İctimai rəy bir çox ölkələrdə qərarların qəbuluna təsir edən əsas mexanizmlərdən biridir.

---

[9] Yenə orda: http://e-qanun.gov.az/framework/27804
[10] Yenə orda: http://e-qanun.gov.az/framework/26879

## 2.5. Yazılı Məsləhətləşmə

"İctimai İştirakçılıq Haqqında" Qanunda nəzərdə tutulan ictimai iştirakçılıq formalarından biri də məsləhətləşmədir. Qanunda məsləhətləşmənin yazılı formasını tənzimləyən müddəalar vardır. Qanunun 16.1. və 16.2.-ci maddələrində göstərilir ki, "*Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları hazırladıqları hüquqi aktların layihələri barədə yazılı məsləhətləşmələrin başlanması haqqında məlumatı öz internet səhifəsində və ya kütləvi informasiya vasitələrində yerləşdirir. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən əldə edilməsi məhdudlaşdırılmış informasiyanı nəzərdə tutan hüquqi aktların layihələri və ya onların müvafiq struktur elementləri yazılı məsləhətləşmə üçün dərc olunmur"*[11] . Qanunda layihələrə dair vətəndaş cəmiyyəti strukturları və nümayəndələri ilə yazılı məsləhətləşmənin müddətlərini də müəyyən edir. Qanunun 17.1. və 17.2.-ci maddələrində göstərilir ki, "*Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları hazırladıqları hüquqi aktların layihələri barədə vətəndaş cəmiyyəti institutlarının rəy, irad və təkliflər verə bilməsi üçün azı yeddi iş günü nəzərdə tutur.*

*Daxil olmuş rəy, irad və təkliflər mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən müzakirə edilib qiymətləndirildikdən sonra onların nəzərə alınmasına və ya rədd edilməsinə dair on dörd gün ərzində əsaslandırılmış qərar verilir və dərc edilir*"[12] .

[11] Yenə orda: http://e-qanun.gov.az/framework/26879
[12] Yenə orda: http://e-qanun.gov.az/framework/26879

# III.TƏLİM MODULLARI

**(**CD versiyası PowerPoint proqramında əlavə olunur)

**Modul 1**

## 3.1.İctimai İştirakçılıq və onun qanunvericilik əsasları

**Təlimin məqsədi**

Təlimin məqsədi maraqlı tərəflərə (iştirakçılara) Azərbaycan Respublikası qanunvericiliyində vətəndaş cəmiyyətinin qərarların qəbulunda iştirakı üçün ölkə qanunvericiliyində müəyyən olunmuş ictimai iştirak formalarına dair məlumatlandırmaq, iştirakçılığın qanunvericilik əsaslarını izah etmək

**Təlim modulunun məzmunu**

- İctimai İştirakçılıq Nədir?
- İctimai İştirakın qanunvericilik təminatı;
- İctimai iştirakçılığın formaları;
- İctimai iştirakçılığın məqsədləri.

**Tələb olunan texniki vasitələr və vaxt**

| |
|---|
| **Texniki vasitələr:**<br>Notebook<br>Multiproektor<br>Lövhə<br>**Tələb olunan vaxt**<br>60 dəqiqə |

## 1.İctimai İştirakçılıq nədir?

Dövlət və cəmiyyət həyatının müxtəlif sahələrində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində, ümumdövlət və yerli səviyyədə qərarların qəbulunda iştirak;

Mərkəzi icra hakimiyyəti orqanlarının, yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının fəaliyyətinə ictimai nəzarətin təşkilində iştirak;

Dövlət və yerli özünüidarəetmə orqanlarının ictimaiyyətlə məsləhətləşməsi və ictimai rəyin öyrənilməsi proseslərində vətəndaş cəmiyyəti təsisatlarının iştirakının təmin olunması.

## 2. İctimai İştirakın qanunvericilik təminatı

Azərbaycan Respublikası Konstitusiyası(1, 2, 50, 54, 55, 57, 58, 94, 96, 130) maddələri;

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyalar və müqavilələr (Məsələn, Orxus konvensiyası)

İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının Qanunu

“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası" nın qəbul edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinin 27 iyul 2007-ci il tarixli sərəncamı;

“Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 171 saylı qərarı

"Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqındaAzərbaycan Respublikası Nazirlər Kabinetinin172 saylı qərarı

## 3. İctimai iştirakçılığın formaları

Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının yanında **ictimai şuraların** yaradılması

İctimai əhəmiyyətli qərarların qəbulu zamanı **ictimai müzakirələrin** keçirilməsi

Hüquqi aktların layihələrinə, dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinə dair **ictimai dinləmələrin** keçirilməsi

**İctimai rəyin öyrənilməsi**

**Hüquqi aktların layihələrinin ictimai müzakirəsi**

Hüquqi aktların layihələrinə dair vətəndaş cəmiyyəti institutlarının rəylərinin öyrənilməsi üçün **yazılı məsləhətləşmə**

## 4. İctimai İştirakçılıq Formaları

**İctimai Şura**

Qanunda nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi üçün mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının yanında yaradılan məşvərətçi qurum.

**İctimai Müzakirə**

İctimai əhəmiyyətli qərarların qəbulu zamanı müvafiq məsələlər barəsində əhalinin müxtəlif təbəqələrinin təkliflərinin hazırlanması üçün aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətli nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin iştirakı ilə təşkil olunmuş yığıncaq.

**İctimai Dinləmə**

Hüquqi aktların layihələrinə, dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinə dair ictimaiyyətlə məsləhətləşmələrin keçirilməsi və vətəndaşların məlumatlandırılması üçün aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətli nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin iştirakı ilə təşkil olunmuş yığıncaq.

**İctimai Rəyin Öyrənilməsi**

Dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinə dair əhalinin müxtəlif təbəqələrinin rəyinin öyrənilməsi məqsədi ilə sosioloji sorğuların və digər oxşar tədbirlərin keçirilməsi.

**Hüquqi Aktların layihələrinin İctimai Müzakirəsi**

Hüquqi aktların layihələrinin onların hazırlanmasında iştirak edən şəxslərin, habelə vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı vətəndaşların, ekspertlərin və mütəxəssislərin iştirakı ilə araşdırılması, təhlil edilməsi və qiymətləndirilməsi.

**Yazılı Məsləhətləşmə**

Hüquqi aktların layihələrinə dair vətəndaş cəmiyyəti institutlarının rəylərinin öyrənilməsi üçün mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən onlara müraciət edilməsi və yazılı formada təqdim olunmuş rəy, irad və təkliflərin təhlil edilməsi, ümumiləşdirilməsi və qiymətləndirilməsi.

## 5. İctimai iştirakçılığın məqsədləri

Vətəndaşların dövlətin idarə olunmasında iştiraka cəlb edilməsi;

Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi.

Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili;

Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması;

Dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması;

Əsas insan və vətəndaş hüquqlarının müdafiəsi.

**Modul 2**

## 3.2.İctimai Şuralar və onların fəaliyyəti

### Təlimin məqsədi

Təlimin məqsədi maraqlı tərəflərə (iştirakçılara) mərkəzi və yerli icra hakimiyyəti orqanları, eləcə də yerli özünüidarə orqanları nəzdində fəaliyyət göstərən ictimai şuraların hüquqları, vəzifələri, fəaliyyət qaydaları, qəbul etdiyi qərarlar, iş qaydalarına dair izahatlar vermək.

### Təlim modulunun məzmunu

- İctimai Şuranın Hüquqları
- İctimai Şuraların vəzifələri
- İctimai Şuranın iclasları
- İctimai şuranın sədri, sədr müavini və katibi İctimai şuranın reqlamenti
- İctimai Şuranın aktları

### Tələb olunan texniki vasitələr və vaxt

**Texniki vasitələr:**
Notebook
Multiproektor
Lövhə
**Tələb olunan vaxt**
60 dəqiqə

## 1. İctimai Şuranın Hüquqları

Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından öz fəaliyyəti üçün zəruri olan məlumatları, ictimaiyyətlə məsləhətləşmələr tələb edən məsələlər üzrə hüquqi aktların layihələrini almaq;

İctimaiyyətlə məsləhətləşmələrin keçirilməsi barədə mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanına təkliflər vermək;

Müvafiq ərazidə və sahədə dövlət siyasətinin formalaşması və həyata keçirilməsi barədə təkliflərlə çıxış etmək;

Müvafiq sahədə dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi barədə hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı təkliflər vermək;

İctimai əhəmiyyət kəsb edən məsələlərin həllinə dair vətəndaş cəmiyyəti institutlarının təkliflərini toplamaq, ümumiləşdirmək və mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanına təqdim etmək;

Dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinin müzakirəsi üçün açıq tədbirlər (ictimai müzakirələr, dinləmələr, seminarlar, konfranslar, dəyirmi masalar və digər tədbirlər) təşkil etmək;

İctimai rəyin öyrənilməsi üçün sorğular keçirmək və ya müvafiq təşkilatlara sorğu keçirilməsi barədə təkliflər vermək; hüquqi aktların layihələrinin ictimai müzakirəsini keçirmək;

Şuranın işinə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının nümayəndələrini, vətəndaş cəmiyyəti institutlarını, ekspertləri və elmi təşkilatların, o

cümlədən beynəlxalq təşkilatların nümayəndələrini, ayrı-ayrı mütəxəssisləri cəlb etmək;

Öz məqsədlərini həyata keçirmək üçün daimi və müvəqqəti işçi orqanlar (komitələr, komissiyalar, ekspert qrupları, işçi qruplar və s.) yaratmaq.

İctimai şura üzvlərinin mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının yerləşdiyi binaya müvafiq orqan tərəfindən müəyyən olunmuş qaydada daxil olmaq hüququ vardır.

## 2. İctimai Şuraların vəzifələri

Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, habelə digər normativ hüquqi aktlara riayət etmək;

Şuranın fəaliyyəti barədə əhalini məlumatlandırmaq;

Öz fəaliyyətinə dair illik hesabat hazırlamaq və dərc etdirmək;

Müzakirə olunan məsələlərə qərəzsiz yanaşmaq.

## 3. İctimai Şuranın İclasları

İctimai şuranın iclasları ildə dörd dəfədən az olmayaraq keçirilir. Növbədənkənar iclaslar ictimai şura sədrinin təşəbbüsü və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.

İctimai şuranın iclasları açıq keçirilir.

İctimai şuranın iclasının gündəliyinin layihəsi ictimai şura sədrinin və üzvlərinin təklifləri əsasında formalaşır və iclasda təsdiq olunur. Mərkəzi və yerli icra hakimiyyəti orqanı və yerli özünüidarəetmə orqanı ictimai şuranın müzakirəsinə məsələlər təklif edə bilər.

İctimai şura üzvlərinin yarısından çoxu iştirak etdikdə iclaslar səlahiyyətlidir. İctimai şuranın iclaslarını onun sədri aparır. Sədr olmadıqda isə iclasa sədrlik onun müavini tərəfindən həyata keçirilir.

İctimai şuranın aktları iclasda iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edilir və sədrlik edən tərəfindən imzalanır. Səslər bərabər olarsa sədrin səsi həlledici olur.

Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanının nümayəndələri ictimai şuranın iclaslarında iştirak edə bilərlər.

## 4. İctimai şuranın sədri, sədr müavini və katibi

İctimai şuranın sədri şuranın iclasında şuranın üzvləri arasından iki il müddətinə seçilir.

İctimai şuranın sədri:

İctimai şuranın fəaliyyətinə rəhbərlik edir;

Dövlət və yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyəti institutları ilə münasibətlərdə ictimai şuranı təmsil edir;

İctimai şuranın fəaliyyətinin prioritet istiqamətlərini müəyyənləşdirir;

İctimai şuranın iclaslarına sədrlik edir.

İctimai şura sədrinin müavini şuranın iclasında şuranın üzvləri arasından iki il müddətinə seçilir.

İctimai şuranın katibi şuranın iclasında şura üzvləri arasından iki il müddətinə seçilir.

İctimai şuranın katibi:

İctimai şuranın cari fəaliyyətini təmin edir;

İctimai şura üzvlərinin fəaliyyətini əlaqələndirir;

İctimai şuranın aktlarını aidiyyəti üzrə təqdim edir;

İctimai şuranın kargüzarlıq işini təşkil edir.

## 5. **İctimai şuranın reqlamenti**

İctimai şuranın iş qaydası onun iclasında qəbul edilən reqlament ilə müəyyən edilir.

İctimai şuranın reqlamentində aşağıdakılar nəzərdə tutulur:

İctimai şuranın iclaslarının keçirilməsi vaxtı və qaydası;

İctimai şuranın aktlarının qəbul edilməsi qaydası;

İctimai şuranın sədrinin, sədrin müavininin və katibin seçilməsi qaydası;

İctimai şuranın daimi və müvəqqəti işçi orqanlarının (komitələr, komissiyalar, ekspert qrupları, işçi qruplar və s.) yaradılması və onların vəzifələri;

İctimai şuranın üzvlüyünə xitam verilməsinin əsasları və qaydası;

İctimai şuranın mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə qarşılıqlı fəaliyyətinin təşkili məsələləri;

İctimai şuranın işinə mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının, ekspertlərin və elmi təşkilatların, o cümlədən beynəlxalq təşkilatların nümayəndələrinin, ayrı-ayrı mütəxəssislərin cəlb olunması qaydası;

İctimai şuranın strukturu və fəaliyyətinin təşkili ilə bağlı digər məsələlər.

## 6. İctimai şuranın aktları

İctimai şura təşkilati məsələlər üzrə qərarlar, digər məsələlər üzrə isə rəy və təkliflər qəbul edir.

İctimai şuranın rəy və təkliflərinə həmin sənədlərin ünvanlandığı mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanı tərəfindən "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxılmalıdır.

İctimai şuranın rəy və təkliflərinin nəzərə alınmaması müvafiq orqan və ya vəzifəli şəxs tərəfindən əsaslandırılmalıdır.

**Modul 3**

## 3.3.İctimai şuraların təşkili[13]

### Təlimin məqsədi

Təlimin məqsədi maraqlı tərəflərə (iştirakçılara) mərkəzi və yerli icra hakimiyyəti orqanları, eləcə də yerli özünüidarə orqanları nəzdində fəaliyyət göstərən ictimai şuraların formalaşma qaydaları, o cümlədən ictimai şuraya seçkilərin keçirilmə qaydaları ilə bağlı məlumatlandırmaqdır.

### Təlim modulunun məzmunu

- Tərkibi və səlahiyyət müddəti
- İctimai Şuralarda kimlər iştirak edə bilər?
- İctimai şuralara seçkilərin təşkili
- İctimai şuraya namizədlərin irəli sürülməsi
- VC namizəd irəli sürərkən müraciətinə qoşulan sənədlər
- Namizədlərin qeydiyyatı
- Namizədliyin qeydiyyata

[13] Təlim modulu hazırlanarkən Qeyri-Kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəz (ICNL) tərəfindən hazırlanmış "İctimai Şuraların yaradılmasına dair" vəsaitdən istifadə edilmişdir

alınmamasından şikayət

- İctimai Şuraya seçkilərin keçirilməsi
- Səsvermə
- Seçki prosesindən şikayət
- İctimai şuraların növbəti

sәlahiyyәt müddәti

**Tələb olunan texniki vasitələr və vaxt**

**Texniki vasitələr:**
Notebook
Multiproektor
Lövhə
Paylama matrealları
**Tələb olunan vaxt**
90 dəqiqə

## 1.Tərkibi və səlahiyyət müddəti

İctimai şura 5-15 üzvdən ibarət tərkibdə bu Qanunla müəyyən edilmiş tələblər nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əsasnaməyə uyğun olaraq vətəndaş cəmiyyəti institutları tərəfindən seçilir. Azərbaycan Respublikasının 16 yaşına çatmış hər bir vətəndaşı ictimai şuranın üzvü ola bilər.

İctimai şuranın səlahiyyət müddəti iki ildir

İctimai şuranın üzvləri gizli səsvermə yolu ilə seçilir.

Hər bir vətəndaş cəmiyyəti institutu ictimai şuranın üzvlüyünə yalnız bir namizəd irəli sürə bilər.

İctimai şuradakı fəaliyyətinə görə üzvlərə əmək haqqı, qonarar, kompensasiya və başqa ödənişlər verilmir

İctimai şuranın sərbəst fəaliyyəti üçün şərait yaradılır

## 2. İctimai Şuralarda kimlər iştirak edə bilər?

Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar),
Kütləvi informasiya vasitələri,
Həmkarlar ittifaqları,
Vətəndaşların təşəbbüs qrupları
Bələdiyyələrin məhəllə komitələri;

## 3.İctimai iştirakçılıq haqqında Qanuna əsasən, aşağıdakı tələblərə cavab verən hər bir kəs ictimai şuranın üzvü ola bilər

Azərbaycan Respublikasının 16 yaşına çatmış hər bir fəaliyyət qabiliyyətli vətəndaşı;

Yüksək mənəvi və əxlaqi keyfiyyətlərə malik;

İctimai şuralara münasibətdə müvafiq sahə üzrə təcrübəyə və ya biliyə malik;

İctimai şuranın yanında yaradıldığı mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının işçisi olmamalıdır.

## 3.İctimai şuralara seçkilərin təşkili

İctimai şuralara seçkilərin təşkili həmin mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilir. Bu məqsədlə mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ictimai şuralara seçkiləri təşkil edəcək Seçki Komissiyası yaratmalıdır.

**Seçki Komissiyası**

Seçki Komissiyası 9 nəfərdən ibarət olur. Komissiyanın 4 üzvü müvafiq mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının əməkdaşlarından, 5 üzvü isə vətəndaş cəmiyyəti institutlarının nümayəndələrindən ibarət olmalıdır. Mərkəzi icra hakimiyyəti orqanı yanında yaradılan ictimai şuralara münasibətdə müvafiq sahə üzrə ixtisaslaşmış vətəndaş cəmiyyəti institutlarının nümayəndələri seçki komissiyasında təmsil olunmalıdır. **Seçki komissiyasının üzvləri namizəd ola bilməzlər və səsvermədə iştirak edə bilməzlər.**

## 4. İctimai şuraya namizədlərin irəli sürülməsi

Seçki Komissiyası mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları adından rəsmi internet səhifəsi və ya mövcud olan digər vasitələrlə (kütləvi informasiya vasitələri, məlumat lövhəsi və s.) ictimai şuraya namizədlərin irəli sürülməsi vaxtını elan edir. Namizədlərin irəli sürülməsi və qeydiyyatı üçün nəzərdə tutulan müddət 20 iş günündən az, 30 iş günündən artıq ola bilməz.

Hər VCİ mərkəzi icra hakimiyəti yanında yaradılan ictimai şuraya namizəd irəli sürə bilər. **Yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının** yanında yaradılan ictimai şuralara namizədləri həmin ərazidə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları irəli sürə bilər. Hər VCİ ictimai şuranın üzvlüyünə yalnız bir namizəd irəli sürə bilər. İctimai şura üzvlüyünə namizədlər ictimai şuranın ixtisaslaşdığı müvafiq sahə üzrə təcrübəyə və ya biliyə malik olmalıdır.

## 5. VC namizəd irəli sürərkən müraciətinə qoşulan sənədlər

- Namizədin şəxsiyyət vəsiqəsinin surəti;
- Namizədin tərcümeyi-halı;

- Vətəndaş hər hansı bir vətəndaş cəmiyyəti institutunun üzvü olduğu halda həmin üzvlüyü təsdiq edən sənədin sutəri. (Bu tələb yalnız üzvlük-əsaslı vətəndaş cəmiyyəti institutlarına şamil edilir.)

İctimai şuraların seçilməsinə dair Əsasnaməyə əsasən, "təqdim olunan sənədlərdən əlavə vətəndaş cəmiyyəti institutu tərəfindən namizəd barədə geniş məlumat verən digər sənədlər də təqdim edilə bilər.

## 6. Namizədlərin qeydiyyatı

Seçki Komissiyası 3 iş günü müddətində ictimai şuraya namizədliyi irəli sürülmüş şəxsin qeydiyyatı məsələsinə baxır və müvafiq qərar qəbul edir. Burada "3 iş günü müddəti" dedikdə namizədlərin irəli sürülməsi üçün nəzərdə tutulan ümumi vaxtdan, yoxsa hər müraciət təqdim edildikdən sonrakı 3 günün nəzərdə tutulduğu aydın olmur. Əsasnamədə "namizədlərin irəli sürülməsi və qeydiyyatı üçün nəzərdə tutulan müddət" ifadəsindən istifadə olunması bizə düşünməyə imkan verir ki, Seçki Komissiyası namizədin ərizəsi təqdim edildikdən sonra 3 iş günü müddətində namizədin qeydiyyatı haqqında qərarını bildirməlidir. Seçki Komissiyası namizədi qeydiyyata almadıqda imtinanın səbəbləri barədə dərhal onun email ünvanına bildiriş göndərməli və ya şəxsən izah etməlidir. Namizədliyin qeydiyyatından yalnız şəxs yuxarıda müzakirə olunan ictimai şura üzvlərinə irəli sürülən tələblərə uyğun gəlmədikdə imtina oluna bilər.

## 7. Namizədliyin qeydiyyata alınmamasından şikayət

İctimai şuraya namizədliyi qeydiyyata alınmamış şəxs bundan müvafiq mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanına müraciət etmək və ya məhkəməyə şikayət etmək hüququna malikdir. Namizədliyi qeydiyyata alınmayan şəxs inzibati qaydada müvafiq icra hakimiyyəti orqanına şikayət edə bilər. Eləcə də, məhkəməyə müraciət etmək mümkündür.

## 8. İctimai Şuraya seçkilərin keçirilməsi

İctimai şuranın üzvləri irəli sürülmüş namizədlər içərisindən gizli səsvermə yolu ilə seçilir.

Birgə yığıncaqda təmsilçilərinin iştirak etməsini istəyən vətəndaş cəmiyyəti institutları seçki gününə on gün qalanadək, həmin şəxslər barədə zəruri məlumatları göstərməklə, seçki komissiyasına müraciət etməlidirlər.

Seçki komissiyası vətəndaş cəmiyyəti institutlarının müraciəti əsasında birgə yığıncaqda iştirak edəcək təmsilçilərin qeydiyyatını aparır.

## 9. Səsvermə

Birgə yığıncaq zamanı vətəndaş cəmiyyəti institutlarının təmsilçilərinə seçki komissiyası tərəfindən hazırlanmış və namizədlərin adı qeyd olunmuş seçkilərə qədər (seçkibülleteni) paylanılır.

Yığıcağın keçirildiyi otağın mərkəzində, hamının sərbəst görə biləcəyi yerdə seçki qutusu qoyulur.

Vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri fəaliyyət göstərəcək ictimai şuranın üzvlərinin say həddinə  uyğun və ya bundan az sayda namizədə səs verirlər

Birgə yığıncaqda iştirak edənlərin yarıdan çoxunun səsini toplamış şəxslər ictimai şuranın tərkibinə seçilmiş hesab olunurlar

İctimai şuraya seçilmək üçün yetərli səs toplamış namizədlərin sayı fəaliyyət göstərəcək ictimai şuranın üzvlərinin say həddindən az olduqda, üç gün müddətində boş qalan yerlər üçün təkrar seçkilərin keçirilməsi barədə qərar qəbul edilir.

Təkrar seçkilər zamanı ən çox səs toplamış namizədlər boşqalmış yerlərə seçilmiş hesab olunurlar.

Seçkilərin nəticələri seçkilər keçirilən gün elan edilir

## 10. Seçki prosesindən şikayət

İctimai şuraya seçilməmiş namizədlərin seçkilərin nəticəsi və ya keçirilmə prosesi ilə bağlı iradları olarsa, bu barədə müvafiq mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına müraciət edə və (və ya) məhkəməyə şikayət verə bilərlər. Seçkilərin nəticəsindən və ya keçirilmə prosesindən şikayət yuxarıda müzakirə olunmuş namizədliyin qeydiyyata alınmamasına görə şikayət mexanizmi ilə eynidir.

## 11.İctimai şuraların növbəti səlahiyyət müddəti

İctimai şuranın səlahiyyət müddəti iki ildir. İctimai şuranın səlahiyyət müddətinin başa çatmasına iki ay qalmış yeni ictimai şuranın formalaşdırılması məqsədi ilə mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının rəsmi internet səhifəsi ilə və ya mövcud olan digər vasitələrlə (kütləvi informasiya vasitələri, məlumat lövhəsi və s.) növbəti seçki barədə məlumat verilir və ictimai şuraya namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanılması və başa çatması vaxtı elan edilir. İctimai şuranın səlahiyyətləri yeni seçilmiş ictimai şuranın ilk iclas günü başa çatır.

İctimai şuraya seçilmiş namizədlərə şuraya üzvlüyü təsdiq edən vəsiqələr verilir. İctimai şura üzvlərinin vəsiqələrinin forması mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən təsdiq edilir. İctimai şuradakı fəaliyyətinə görə üzvlərə əmək haqqı, qonarar, kompensasiya və başqa ödənişlər verilmir.

# IV.İCTİMAİ ŞURANIN SEÇKİLƏRİNİN TƏŞKİLİ ÜÇÜN SƏNƏD NÜMUNƏLƏRİ[14]

***Əlavə 1.***

## İctimai şuraların yaradılmasının təşkili cədvəli




[14] Nümunələr Qeyri-Kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəz (ICNL) tərəfindən hazırlanmış "İctimai Şuraların yaradılmasına dair" vəsaitdən götürülmüşdür

*Əlavə 2.*

**Seçki Komissiyasının vəzifələri cədvəli**

Tərkibi: Hər Seçki Komissiyası 9 üzvdən ibarət olur – 4 üzv müvafiq orqanın

Seçki Komissiyasının vəzifələri:

- İctimai şura üzvlərinin sayını müəyyən edir;
- İctimai şura üzvlərinin

İcazə verilmir:

- Seçki Komissiyasının

**Əlavə 3.**

***Əlavə 3.***

**İctimai şuraya vətəndaş cəmiyyəti institutu tərəfindən namizədin irəli sürülməsinə dair müraciət nümunəsi**

**İctimai Şuranın seçkiləri üzrə Seçki Komissyasına**

*(Vətəndaş cəmiyyəti institutunun adı)* *Əliyev Əli Əli oğlunun* *(müvafiq orqanın adı)* yanında İctimai şurada üzvlüyə namizədliyini irəli sürür. O, yüksək mənəvi və əxlaqi keyfiyyətlərə, eləcə də ictimai şuranın fəaliyyət istiqamətləri üzrə geniş bilik və təcrübəyə malik şəxsidr. Əli Əliyevin ətraflı tərcümeyi-halı və şəxsiyyət vəsiqəsinin surəti əlavə olunur.

Hörmətlə,

______________________________

**İmza:**

**Tarix:**

*Əlavə 4.*

**Seçki bülleteni nümunəsi**

Zəhmət olmasa, *(müvafiq orqanın adı)* yanında İctimai şuranın üzvlərini seçin. Bunun üçün seçdiyiniz namizədlərin soyadlarının qarşısındakı sağ xananı işarələməyiniz xahiş olunur. İctimai şura 5 üzvdən təşkil olunacağı üçün (5 rəqəmi şərtidir 5-15 arası ola bilər. Say tərkibinin müəyyən etmək səlahiyyəti seçki komissiyasına məxsusdur) siz ancaq 5 namizədə səs verə bilərsiniz. 5 namizəddən artıq sayda şəxsə səs versəniz bülleteniniz etibarsız sayılacaq.

| | **Adı və soyadı** | |
|---|---|---|
| 1 | Əli Əliyev | |
| 2 | Məmməd Məmmədov | |
| 3 | Əhməd Əhmədov | |
| 4 | Fatma Həsənova | |
| 5 | Gülarə Əliyeva | |
| 6 | Vəli Vəliyev | |
| 7 | Qulu Quliyev | |
| 8 | Məryəm Əhmədzadə | |
| 9 | Namiq Məmmədov | |
| 10 | Aqil Azimov | |
| 11 | Elxan Aşurov | |
| 12 | Hamının əleyhinə | |

***Əlavə 5.***

*(Müvafiq orqanın adı)* **yanında İctimai şuraya seçkinin nəticələrinə dair protokol nümunəsi**

2014-cü il 10 oktyabr tarixində, saat 17:00-da *(müvafiq orqanın adı)* yanında yaradılmış Seçki Komissiyasının 9 üzvü (ad və soyadları) səsvermədə iştirak edənlərin müşahidəsi altında seçki qutusunu açdılar və seçki bülletenlərinin saydılar. Qutuda 35 bülleten var idi. Onlardan 5-i etibarsız sayıldı. Hər namizəd üçün səslər aşağıdakı kimidir:

Əli Əliyev - 30 səs
Məmməd Məmmədov - 28 səs
Əhməd Əhmədov - 11 səs
Fatma Həsənova - 30 səs
Gülarə Əliyeva - 29 səs
Vəli Vəliyev – 5 səs
Qulu Quliyev – 17 səs
Məryəm Əhmədzadə - 25 səs
Namiq Məmmədov- 9 səs
Aqil Azimov - 30 səs
Elxan Aşurov - 15 səs

Seçki Komissyası səslərin sayına əsaslanaraq aşağıdakı namizədləri *(müvafiq orqanın adı)* yanında İctimai şuranın üzvü elan edir:

Əli Əliyev - 30 səs
Fatma Həsənova – 30 səs

Aqil Azimov – 30 səs
Gularə Əliyeva – 29 səs
Məmməd Məmmədov – 28 səs

**Seçki Komissiyasının 9 üzvünün adı, soyadı və imzası:**

**Tarix və yer:**

# V.ƏLAVƏLƏR

# İctimai İştirakçılığı təmin edən normativ-hüquqi aktlar

## İctimai iştirakçılıq haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşlarının dövlət idarəetməsinin həyata keçirilməsinə cəlb edilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

### 1-ci fəsil
### Ümumi müddəalar

M a d d ə 1. **Əsas anlayışlar**

1.0. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.0.1. ictimai iştirakçılıq – dövlət və cəmiyyət həyatının müxtəlif sahələrində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində, ümumdövlət və yerli səviyyədə qərarların qəbulunda, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş mərkəzi icra hakimiyyəti orqanlarının (bundan sonra – mərkəzi icra hakimiyyəti orqanları), yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin təşkilində vətəndaşların və vətəndaş cəmiyyət institutlarının bu Qanunla müəyyən edilmiş formalarda iştirakı, dövlət və yerli

özünüidarəetmə orqanlarının ictimaiyyətlə məsləhətləşməsi və ictimai rəyin nəzərə alınması;

1.0.2. vətəndaş cəmiyyəti institutları – qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar), kütləvi informasiya vasitələri, həmkarlar ittifaqları, vətəndaşların təşəbbüs qrupları və bələdiyyələrin məhəllə komitələri;

1.0.3. ictimai şura – bu Qanunda nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi üçün mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının yanında yaradılan məşvərətçi qurum;

1.0.4. ictimai müzakirə – ictimai əhəmiyyətli qərarların qəbulu zamanı müvafiq məsələlər barəsində əhalinin müxtəlif təbəqələrinin təkliflərinin hazırlanması üçün aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətli nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin iştirakı ilə təşkil olunmuş yığıncaq;

1.0.5. ictimai dinləmə – hüquqi aktların layihələrinə, dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinə dair ictimaiyyətlə məsləhətləşmələrin keçirilməsi və vətəndaşların məlumatlandırılması üçün aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətli nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin iştirakı ilə təşkil olunmuş yığıncaq;

1.0.6. ictimai rəyin öyrənilməsi – dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinə dair əhalinin müxtəlif təbəqələrinin rəyinin öyrənilməsi məqsədi ilə sosioloji sorğuların və digər oxşar tədbirlərin keçirilməsi;

1.0.7. hüquqi aktların layihələrinin ictimai müzakirəsi – hüquqi aktların layihələrinin onların hazırlanmasında iştirak edən şəxslərin, habelə vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı

vətəndaşların, ekspertlərin və mütəxəssislərin iştirakı ilə araşdırılması, təhlil edilməsi və qiymətləndirilməsi;

1.0.8. yazılı məsləhətləşmə – hüquqi aktların layihələrinə dair vətəndaş cəmiyyəti institutlarının rəylərinin öyrənilməsi üçün mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən onlara müraciət edilməsi və yazılı formada təqdim olunmuş rəy, irad və təkliflərin təhlil edilməsi, ümumiləşdirilməsi və qiymətləndirilməsi.

M a d d ə 2. **İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən və bu Qanundan ibarətdir.

2.2. Bu Qanunun müddəaları vətəndaş cəmiyyəti institutlarının və ayrı-ayrı vətəndaşların ictimai iştirakçılığın həyata keçirilməsi ilə bağlı bu Qanunda nəzərdə tutulmamış digər hüquqlarını məhdudlaşdırmır.

M a d d ə 3**. İctimai iştirakçılığın məqsədləri**

3.0. İctimai iştirakçılığın məqsədləri aşağıdakılardır:

3.0.1. vətəndaşların dövlətin idarə olunmasında iştiraka cəlb edilməsi;

3.0.2. mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi;

3.0.3. mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili;

3.0.4. mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması;

3.0.5. dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması;

3.0.6. əsas insan və vətəndaş hüquqlarının müdafiəsi.

M a d d ə 4. **İctimai iştirakçılığın prinsipləri**

4.0. İctimai iştirakçılıq aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

4.0.1. qanunçuluq;

4.0.2. könüllülük;

4.0.3. şəffaflıq;

4.0.4. plüralizm;

4.0.5. bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi.

M a d d ə 5. **İctimai iştirakçılığın formaları**

5.1. İctimai iştirakçılığın formalarına aşağıdakılar aiddir:

5.1.1. ictimai şura;

5.1.2. ictimai müzakirə;

5.1.3. ictimai dinləmə;

5.1.4. ictimai rəyin öyrənilməsi;

5.1.5. hüquqi aktların layihələrinin ictimai müzakirəsi;

5.1.6. yazılı məsləhətləşmə.

5.2. Bu Qanun ictimai iştirakçılığın digər formalarda həyata keçirilməsini məhdudlaşdırmır.

## 2-ci fəsil
## İctimai şuralar

M a d d ə 6. **İctimai şuranın yaradılması qaydası**

6.1. İctimai şura 5-15 üzvdən ibarət tərkibdə bu Qanunla müəyyən edilmiş tələblər nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əsasnaməyə uyğun olaraq vətəndaş cəmiyyəti institutları tərəfindən seçilir. Azərbaycan Respublikasının 16 yaşına çatmış hər bir vətəndaşı ictimai şuranın üzvü ola bilər.

6.2. İctimai şuranın səlahiyyət müddəti iki ildir.

6.3. Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanı öz internet səhifəsi və mövcud olan digər vasitələrlə ictimai şuraya namizədlərin irəli sürülməsi, onların qeydiyyatının başlanması və başa çatması vaxtını elan edir. Namizədlərin irəli sürülməsi və qeydiyyatı üçün nəzərdə tutulan müddət iyirmi iş günündən az ola bilməz.

6.4. Hər bir vətəndaş cəmiyyəti institutu ictimai şuranın üzvlüyünə yalnız bir namizəd irəli sürə bilər. Namizədlərin irəli sürülməsi başa çatdıqdan sonra bir ay müddətində ictimai şuraya seçkilər keçirilir.

6.5. Namizəd irəli sürməyən vətəndaş cəmiyyəti institutları da ictimai şuranın üzvlərinin seçilməsində iştirak edə bilərlər.

6.6. İctimai şuranın üzvləri irəli sürülmüş namizədlər içərisindən vətəndaş cəmiyyəti institutlarının (onların ərazi təşkilatlarının), yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına münasibətdə isə müvafiq ərazidə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarının bərabər sayda təmsilçilərindən ibarət birgə yığıncaqda gizli səsvermə yolu ilə seçilir.

6.7. İctimai şuradakı fəaliyyətinə görə üzvlərə əmək haqqı, qonorar, kompensasiya və başqa ödənişlər verilmir.

6.8. İctimai şuranın fəaliyyətinin texniki (mərkəzi və yerli icra hakimiyyəti orqanı və yerli özünüidarəetmə orqanının maliyyə vəsaitlərindən istifadə istisna olmaqla) və informasiya təminatı ilə bağlı məsələlər müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanı və yerli özünüidarəetmə orqanı tərəfindən həll edilir.

6.9. Mərkəzi və yerli icra hakimiyyəti orqanı və yerli özünüidarəetmə orqanı tərəfindən ictimai şuranın sərbəst fəaliyyəti üçün şərait yaradılır.

M a d d ə 7. **İctimai şuranın hüquqları və vəzifələri**

7.1. İctimai şuranın aşağıdakı hüquqları vardır:

7.1.1. mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından öz fəaliyyəti üçün zəruri olan məlumatları, ictimaiyyətlə məsləhətləşmələr tələb edən məsələlər üzrə hüquqi aktların layihələrini almaq;

7.1.2. ictimaiyyətlə məsləhətləşmələrin keçirilməsi barədə mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanına təkliflər vermək;

7.1.3. müvafiq ərazidə və sahədə dövlət siyasətinin formalaşması və həyata keçirilməsi barədə təkliflərlə çıxış etmək;

7.1.4. müvafiq sahədə dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi barədə hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı təkliflər vermək;

7.1.5. ictimai əhəmiyyət kəsb edən məsələlərin həllinə dair vətəndaş cəmiyyəti institutlarının təkliflərini toplamaq, ümumiləşdirmək və mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanına təqdim etmək;

7.1.6. dövlət və cəmiyyət həyatının ayrı-ayrı məsələlərinin müzakirəsi üçün açıq tədbirlər (ictimai müzakirələr, dinləmələr, seminarlar, konfranslar, dəyirmi masalar və digər tədbirlər) təşkil etmək;

7.1.7. ictimai rəyin öyrənilməsi üçün sorğular keçirmək və ya müvafiq təşkilatlara sorğu keçirilməsi barədə təkliflər vermək;

7.1.8. hüquqi aktların layihələrinin ictimai müzakirəsini keçirmək;

7.1.9. şuranın işinə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının nümayəndələrini, vətəndaş cəmiyyəti institutlarını, ekspertləri və elmi təşkilatların, o cümlədən beynəlxalq təşkilatların nümayəndələrini, ayrı-ayrı mütəxəssisləri cəlb etmək;

7.1.10. öz məqsədlərini həyata keçirmək üçün daimi və müvəqqəti işçi orqanlar (komitələr, komissiyalar, ekspert qrupları, işçi qruplar və s.) yaratmaq.

7.2. İctimai şura üzvlərinin mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının yerləşdiyi binaya müvafiq orqan tərəfindən müəyyən olunmuş qaydada daxil olmaq hüququ vardır.

7.3. İctimai şuranın aşağıdakı vəzifələri vardır:

7.3.1. Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, habelə digər normativ hüquqi aktlara riayət etmək;

7.3.2. şuranın fəaliyyəti barədə əhalini məlumatlandırmaq;

7.3.3. öz fəaliyyətinə dair illik hesabat hazırlamaq və dərc etdirmək;

7.3.4. müzakirə olunan məsələlərə qərəzsiz yanaşmaq.

M a d d ə 8. **İctimai şuranın iclasları**

8.1. İctimai şuranın iclasları ildə dörd dəfədən az olmayaraq keçirilir. Növbədənkənar iclaslar ictimai şura sədrinin təşəbbüsü və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.

8.2. İctimai şuranın iclasları açıq keçirilir.

8.3. İctimai şuranın iclasının gündəliyinin layihəsi ictimai şura sədrinin və üzvlərinin təklifləri əsasında formalaşır və iclasda

təsdiq olunur. Mərkəzi və yerli icra hakimiyyəti orqanı və yerli özünüidarəetmə orqanı ictimai şuranın müzakirəsinə məsələlər təklif edə bilər.

8.4. İctimai şura üzvlərinin yarısından çoxu iştirak etdikdə iclaslar səlahiyyətlidir. İctimai şuranın iclaslarını onun sədri aparır. Sədr olmadıqda isə iclasa sədrlik onun müavini tərəfindən həyata keçirilir.

8.5. İctimai şuranın aktları iclasda iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edilir və sədrlik edən tərəfindən imzalanır. Səslər bərabər olarsa sədrin səsi həlledici olur.

8.6. Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanının nümayəndələri ictimai şuranın iclaslarında iştirak edə bilərlər.

M a d d ə 9. **İctimai şuranın sədri, sədr müavini və katibi**

9.1. İctimai şuranın sədri şuranın iclasında şuranın üzvləri arasından iki il müddətinə seçilir.

9.2. İctimai şuranın sədri:

9.2.1. ictimai şuranın fəaliyyətinə rəhbərlik edir;

9.2.2. dövlət və yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyəti institutları ilə münasibətlərdə ictimai şuranı təmsil edir;

9.2.3. ictimai şuranın fəaliyyətinin prioritet istiqamətlərini müəyyənləşdirir;

9.2.4. ictimai şuranın iclaslarına sədrlik edir.

9.3. İctimai şura sədrinin müavini şuranın iclasında şuranın üzvləri arasından iki il müddətinə seçilir.

9.4. İctimai şuranın katibi şuranın iclasında şura üzvləri arasından iki il müddətinə seçilir.

9.5. İctimai şuranın katibi:

9.5.1. ictimai şuranın cari fəaliyyətini təmin edir;

9.5.2. ictimai şura üzvlərinin fəaliyyətini əlaqələndirir;

9.5.3. ictimai şuranın aktlarını aidiyyəti üzrə təqdim edir;

9.5.4. ictimai şuranın kargüzarlıq işini təşkil edir.

M a d d ə 10. **İctimai şuranın reqlamenti**

10.1. İctimai şuranın iş qaydası onun iclasında qəbul edilən reqlament ilə müəyyən edilir.

10.2. İctimai şuranın reqlamentində aşağıdakılar nəzərdə tutulur:

10.2.1. ictimai şuranın iclaslarının keçirilməsi vaxtı və qaydası;

10.2.2. ictimai şuranın aktlarının qəbul edilməsi qaydası;

10.2.3. ictimai şuranın sədrinin, sədrin müavininin və katibin seçilməsi qaydası;

10.2.4. ictimai şuranın daimi və müvəqqəti işçi orqanlarının (komitələr, komissiyalar, ekspert qrupları, işçi qruplar və s.) yaradılması və onların vəzifələri;

10.2.5. ictimai şuranın üzvlüyünə xitam verilməsinin əsasları və qaydası;

10.2.6. ictimai şuranın mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə qarşılıqlı fəaliyyətinin təşkili məsələləri;

10.2.7. ictimai şuranın işinə mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının, ekspertlərin və elmi təşkilatların, o cümlədən beynəlxalq təşkilatların nümayəndələrinin, ayrı-ayrı mütəxəssislərin cəlb olunması qaydası;

10.2.8. ictimai şuranın strukturu və fəaliyyətinin təşkili ilə bağlı digər məsələlər.

M a d d ə 11. **İctimai şuranın aktları**

11.1. İctimai şura təşkilati məsələlər üzrə qərarlar, digər məsələlər üzrə isə rəy və təkliflər qəbul edir.

11.2. İctimai şuranın rəy və təkliflərinə həmin sənədlərin ünvanlandığı mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanı tərəfindən "*Vətəndaşların müraciətləri* haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxılmalıdır.[1]

11.3. İctimai şuranın rəy və təkliflərinin nəzərə alınmaması müvafiq orqan və ya vəzifəli şəxs tərəfindən əsaslandırılmalıdır.

## 3-cü fəsil
## İctimai dinləmə və ictimai müzakirə

M a d d ə 12. **İctimai dinləmə və ictimai müzakirə təşəbbüsü**

Dövlət və yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyəti institutları, ictimai şuralar və ayrı-ayrı vətəndaşlar ictimai dinləmə və ictimai müzakirənin təşəbbüsçüsü ola bilərlər.

M a d d ə 13. **İctimai dinləmənin və ictimai müzakirənin təşkilinə və keçirilməsinə dair əsas tələblər**

13.1. İctimai dinləmənin və ictimai müzakirənin təşkili və keçirilməsi zamanı aşağıdakılar nəzərə alınmalıdır:

13.1.1. ictimai dinləmənin və ictimai müzakirənin məqsədinin və mövzusunun dəqiq müəyyən edilməsi;

13.1.2. dinləmənin və müzakirənin mövzusu barədə maraqlı tərəflərin məlumatlandırılması;

13.1.3. dinləmələrə və müzakirələrə ekspertlərin və mütəxəssislərin cəlb edilməsi;

13.1.4. problemin müstəqil və geniş təhlilinin aparılması;

13.1.5. tələb olunduğu hallarda alternativ layihələrin və təkliflərin müzakirəyə çıxarılması;

13.1.6. dinləmənin və müzakirənin mövzusuna aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətli nümayəndələrinin iştirakının təmin edilməsi;

13.1.7. dinləmənin və müzakirənin nəticələri haqqında maraqlı tərəflərin məlumatlandırılması.

13.2. İctimai dinləmə və ictimai müzakirə açıq keçirilir. İstənilən şəxs dinləmələrdə iştirak edə və müzakirə olunan məsələ barəsində öz mülahizəsini bildirə bilər.

M a d d ə 14. **İctimai dinləmənin və ictimai müzakirənin təşkili**

14.1. İctimai dinləmənin və ictimai müzakirənin təşkilatçısı:

14.1.1. dinləmənin və müzakirənin mövzusunu dəqiqləşdirir və təsdiq edir;

14.1.2. əsas məruzələrin mövzusunu və məruzəçiləri müəyyən edir;

14.1.3. dinləmənin və müzakirənin keçirilməsi proqramının layihəsini hazırlayır;

14.1.4. dinləmənin və müzakirənin keçirilməsi yerini, vaxtını və müddətini müəyyən edir;

14.1.5. iştirakçıların seçilməsi prinsiplərini və dəvət edilməsi formalarını müəyyənləşdirir, onları dəvət edir;

14.1.6. kütləvi informasiya vasitələri və ictimaiyyət üçün elan xarakterli məlumatlar hazırlayır və həmin məlumatları hamının tanış ola biləcəyi yerlərdə yerləşdirir;

14.1.7. dinləmənin və müzakirənin yekun sənədinin (sənədlərinin) ilkin layihəsini hazırlayır.

14.2. İctimai dinləmənin və ictimai müzakirənin keçirilməsi barədə elan təşəbbüskarın internet səhifəsində və ya kütləvi

informasiya vasitələrində tədbirdən ən azı yeddi iş günü əvvəl dəqiq vaxt və yer göstərilməklə yerləşdirilir.

M a d d ə 15. **İctimai dinləmənin və ictimai müzakirənin yekun sənədi**

15.1. Vətəndaş cəmiyyəti institutları tərəfindən keçirildiyi təqdirdə ictimai dinləmənin yekun sənədi dinləmə zamanı açıqlanmış əsas fikir, rəy və təkliflərin icmalı formasında hazırlanır, ictimai dinləməyə sədrlik edən tərəfindən imzalanır və dinləmə başa çatdıqdan sonra ən geci üç iş günü müddətində aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarına və kütləvi informasiya vasitələrinə təqdim olunur.

15.2. Vətəndaş cəmiyyəti institutları tərəfindən keçirildiyi təqdirdə ictimai müzakirənin yekun sənədi rəy və təkliflər formasında qəbul edilir, iclasın sədri tərəfindən imzalanır və müzakirə başa çatdıqdan sonra ən geci üç iş günü müddətində aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarına və kütləvi informasiya vasitələrinə təqdim olunur.

15.3. İctimai dinləmənin və ictimai müzakirənin yekun sənədlərinə bu Qanunun 11.2-ci maddəsində müəyyənləşdirilmiş qaydada baxılır.

## 4-cü fəsil
## Yazılı məsləhətləşmə

M a d d ə 16. **Yazılı məsləhətləşmənin təşkili**

16.1. Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları hazırladıqları hüquqi aktların layihələri barədə yazılı məsləhətləşmələrin başlanması haqqında məlumatı öz internet səhifəsində və ya kütləvi informasiya vasitələrində yerləşdirir.16.2. “İnformasiya əldə etmək haqqında” Azərbaycan

Respublikasının Qanununa əsasən əldə edilməsi məhdudlaşdırılmış informasiyanı nəzərdə tutan hüquqi aktların layihələri və ya onların müvafiq struktur elementləri yazılı məsləhətləşmə üçün dərc olunmur.

M a d d ə 17. **Yazılı məsləhətləşmələrin müddəti**

17.1. Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları hazırladıqları hüquqi aktların layihələri barədə vətəndaş cəmiyyəti institutlarının rəy, irad və təkliflər verə bilməsi üçün azı yeddi iş günü nəzərdə tutur.

17.2. Daxil olmuş rəy, irad və təkliflər mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən müzakirə edilib qiymətləndirildikdən sonra onların nəzərə alınmasına və ya rədd edilməsinə dair on dörd gün ərzində əsaslandırılmış qərar verilir və dərc edilir.

## 5-ci fəsil

## Hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirə

M a d d ə 18. **Qanun layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili**

18.1. Azərbaycan Respublikasının Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən qanun layihələrinə dair ictimai dinləmə və ictimai müzakirə Azərbaycan Respublikası Milli Məclisinin Aparatı tərəfindən təşkil edilir.

18.2. Qanun layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili üçün Azərbaycan Respublikası Milli Məclisinin Aparatı:

18.2.1. Azərbaycan Respublikası Milli Məclisinin internet səhifəsində xüsusi bölmə ayırır;

18.2.2. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında qeydiyyata alınmış bütün qanun layihələrini müvafiq komitəyə göndərdikdən sonra üç gün ərzində Azərbaycan Respublikası Milli Məclisinin internet səhifəsinin xüsusi bölməsində yerləşdirir;

18.2.3. Azərbaycan Respublikası Milli Məclisinin internet səhifəsinin xüsusi bölməsində qanun layihəsi ilə birlikdə onu təqdim edən subyekt, layihənin qeydiyyat nömrəsi, göndərildiyi komitə (komitələr), ictimai dinləmələrin qrafiki və keçiriləcəyi yer və ictimai müzakirənin müddəti, keçirilməsi qaydaları, rəy, irad və təkliflərin təqdim olunması qaydası, onlara baxılması və nəticələrin açıqlanacağı müddətlər barədə məlumatı yerləşdirir;

18.2.4. qanun layihələrinə dair təqdim olunmuş rəy, irad və təkliflərin nəzərə alınmasının nəticələri barədə ictimaiyyəti məlumatlandırır;

18.2.5. birinci və ikinci oxunuşlardan sonra qanun layihəsinin yenilənmiş mətnlərini dərc edir.

18.3. Qanun layihələrinə dair ictimai dinləmələrin keçirilməsi qaydası Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi ilə müəyyən edilir.

M a d d ə 19. **Digər hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi**

Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair

ictimai dinləmə və ictimai müzakirə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada keçirilir.

### 6-cı fəsil
### Yekun müddəalar

M a d d ə 20. **Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

M a d d ə 21. **Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2014-cü il iyunun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 noyabr 2013-cü il
№ 816-IVQ

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 14 iyun 2016-cı il tarixli **281-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 25 iyun 2016-cı il, № 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1009)**

# QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 14 iyun 2016-cı il tarixli **281-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 25 iyun 2016-cı il, № 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1009)** ilə 11.2-ci maddəsində "**Vətəndaşların müraciətlərinə baxılması qaydası**" sözləri "**Vətəndaşların müraciətləri**" sözləri ilə əvəz edilmişdir.

## “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun tətbiqi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. həmin Qanunun pozulmasına görə inzibati məsuliyyəti müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. həmin Qanunun 1.0.1-ci maddəsinə uyğun olaraq, fəaliyyətinə ictimai nəzarət ediləcək mərkəzi icra hakimiyyəti orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.5. həmin Qanunun 6.1-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, ictimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair əsasnaməni müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.6. həmin Qanunun 19-cu maddəsinə uyğun olaraq, mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi qaydasını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin Qanunun 6.1-ci maddəsinin birinci cümləsində və 19-cu maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

4. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı:

4.1. qəbul ediləcək Azərbaycan Respublikası Prezidentinin aktları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları həmin Qanunun qüvvəyə mindiyi tarixdən tez qüvvəyə minməsin;

4.2. qanunların və normativ xarakterli aktların layihələri hazırlanarkən həmin Qanunun qüvvəyə minmə tarixi nəzərə alınsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 yanvar 2014-cü il
№ 89

## “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”nin təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 89 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə” təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar 2014-cü il iyunun 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur RASİ-ZADƏ**

Bakı şəhəri, 30 may 2014-cü il
№ 171

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 30 may tarixli 171 nömrəli
qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair

## Ə S A S N A M Ə

### 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 6.1-ci maddəsinə əsasən hazırlanmışdır və ictimai şuraların vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsi qaydalarını müəyyən edir.

1.2. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, yüksək mənəvi və əxlaqi keyfiyyətlərə, mərkəzi icra hakimiyyəti orqanı yanında yaradılan ictimai şuralara münasibətdə isə müvafiq sahə üzrə təcrübəyə və ya biliyə malik Azərbaycan Respublikasının 16 yaşına çatmış hər bir fəaliyyət qabiliyyətli vətəndaşı ictimai şuranın üzvü ola bilər.

1.3. Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının işçiləri həmin orqanlarda yaradılan ictimai şuraya üzv ola bilməzlər.

1.4. İctimai şuranın səlahiyyət müddəti iki ildir.

1.5. Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünü-idarəetmə orqanları ictimai şuranın sərbəst və bütün tərəflərə bərabər münasibət göstərməklə formalaşdırılması üçün tam şərait yaratmalıdırlar.

## 2. İctimai şuraya seçkilərin təşkili

2.1. Qanunun 6.1-ci maddəsinə uyğun olaraq, ictimai şuralar vətəndaş cəmiyyəti institutları tərəfindən seçilir.[1]

2.2. İctimai şuralara seçkilərin təşkili həmin mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilir.

2.3. İctimai şuralara seçkilərin təşkili məqsədi ilə mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının yanında 9 nəfərdən ibarət seçki komissiyaları yaradılır.

2.4. Seçki komissiyalarının tərkibi mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının əməkdaşlarından 4 üzv, vətəndaş cəmiyyəti institutu nümayəndələrindən isə 5 üzv (mərkəzi icra hakimiyyəti orqanı yanında yaradılan ictimai şuralara münasibətdə müvafiq sahə üzrə ixtisaslaşmış vətəndaş cəmiyyəti institutlarının nümayəndələri) olmaqla təşkil edilir.

2.5. Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının yanında fəaliyyət göstərəcək ictimai şuranın üzvlərinin say həddi həmin orqanın fəaliyyət istiqamətlərinin genişliyi və iş həcmi nəzərə alınmaqla, 5-15 üzvdən ibarət tərkibdə seçki komissiyaları tərəfindən müəyyən edilir.

2.6. Seçki komissiyalarının fəaliyyəti yalnız ictimai şuralara seçkilərin təşkili və ictimai şuranın üzvlərinin say həddinin müəyyən edilməsi ilə məhdudlaşır.

2.7. İctimai şuraya üzvlər vətəndaş cəmiyyəti institutlarının bərabər sayda təmsilçilərindən ibarət birgə yığıncaqda vətəndaş

cəmiyyəti institutlarının nümayəndələri tərəfindən seçilir. Seçki komissiyalarının üzvləri bu səsvermədə iştirak edə bilməzlər.

2.8. Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları rəsmi internet səhifəsi ilə və ya mövcud olan digər vasitələrlə (kütləvi informasiya vasitələri, məlumat lövhəsi və s.) ictimai şuraya namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanılması və başa çatması vaxtını elan edirlər.

2.9. Namizədlərin irəli sürülməsi və qeydiyyatı üçün nəzərdə tutulan müddət iyirmi iş günündən az, otuz iş günündən artıq ola bilməz.

2.10. Hər bir vətəndaş cəmiyyəti institutu ictimai şuranın üzvlüyünə yalnız bir namizəd irəli sürə bilər.

2.11. Vətəndaş cəmiyyəti institutu müraciətinə ictimai şuranın üzvlüyünə irəli sürdüyü namizəd barədə aşağıdakı sənədləri əlavə etməlidir:

2.11.1. şəxsiyyət vəsiqəsinin surətini;

2.11.2. namizədin tərcümeyi-halını;

2.11.3. namizəd hər hansı bir vətəndaş cəmiyyəti institutunun üzvü olduğu halda həmin üzvlüyü təsdiq edən sənədin surətini.

2.11.4. mərkəzi icra hakimiyyəti orqanı yanında yaradılan ictimai şuralara namizədlərə münasibətdə şəxsin müvafiq sahə üzrə təcrübəyə və ya biliyə malik olmasını sübut edən sənəd (olduğu halda əmək kitabçasının surəti, əmək kitabçası olmadıqda isə məlumatı təsdiqləyəcək digər sənədlər).[2]

2.12. Tələb olunan sənədlərdən əlavə vətəndaş cəmiyyəti institutu tərəfindən namizəd barədə geniş məlumat verən digər sənədlər də təqdim edilə bilər.

2.13. İctimai şuraya namizədliyini irəli sürmək istəyən şəxsin qeydiyyatı məsələsinə seçki komissiyası tərəfindən üç iş günü müddətində baxılır və müvafiq qərar qəbul edilir.

2.14. Yalnız bu Əsasnamənin 1.2-ci, 1.3-cü və 2.10-cu bəndlərində göstərilən şərtlərə uyğun olmayan şəxslərin namizədliyinin qeydiyyatından imtina edilir.[3]

2.15. Şəxsin namizədliyi qeydiyyata alınmadıqda, onun elektron ünvanına səbəbləri göstərilməklə imtina barədə dərhal bildiriş göndərilməli və ya şəxsən təqdim edilməlidir.

2.16. İctimai şuraya namizədliyi qeydiyyata alınmamış şəxs bundan müvafiq mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanına müraciət etmək və ~~(və ya)~~ məhkəməyə şikayət vermək hüququna malikdir.[4]

2.17. İctimai şuraya seçkilər namizədlərin irəli sürülməsi prosesi başa çatdıqdan sonra bir ay müddətində keçirilir.

2.18. Seçki komissiyası rəsmi internet səhifəsi ilə və ya mövcud olan digər vasitələrlə (kütləvi informasiya vasitələri, məlumat lövhəsi və s.) ictimai şuraya seçkilərdə iştirak edəcək namizədliyi qeydə alınmış şəxslərin siyahısını elan edir.

2.19. Seçki komissiyası namizədliyi qeydə alınmış şəxslərə bərabər imkanlar yaratmaqla, rəsmi internet səhifəsi ilə və ya mövcud olan digər vasitələrlə (kütləvi informasiya vasitələri, məlumat lövhəsi və s.) namizədlərin özləri barədə əlavə məlumat vermələrinə şərait yaradır, həmçinin rəsmi internet səhifəsində onlar barədə məlumat verən səhifələrə keçidi təmin edir.

2.20. Namizədliyi qeydə alınmış şəxslər namizədlərin irəli sürülməsi prosesi başa çatdıqdan sonra seçki gününə bir gün qalanadək, seçkiqabağı təşviqat məqsədi ilə təşviqat materialları yaya bilərlər.

2.21. İctimai şuraya seçkinin vaxtı və keçiriləcəyi yer barədə məlumat rəsmi internet səhifəsi ilə və ya mövcud olan digər vasitələrlə (kütləvi informasiya vasitələri, məlumat lövhəsi və s.) elan edilir.

2.22. İctimai şuranın səlahiyyət müddətinin başa çatmasına iki ay qalmış yeni ictimai şuranın formalaşdırılması məqsədi ilə mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının rəsmi internet səhifəsi ilə və ya mövcud olan digər vasitələrlə (kütləvi informasiya vasitələri, məlumat lövhəsi və s.) növbəti seçki barədə məlumat verilir və ictimai şuraya namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanılması və başa çatması vaxtı elan edilir.

2.23. İctimai şuranın səlahiyyətləri yeni seçilmiş ictimai şuranın ilk iclas günü başa çatır.

## 3. İctimai şuralara seçkilərin keçirilməsi

3.1. Namizəd irəli sürüb-sürməməsindən asılı olmayaraq, vətəndaş cəmiyyəti institutlarının (onların ərazi təşkilatlarının), yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına münasibətdə isə həmin ərazidə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarının bərabər sayda təmsilçilərindən ibarət birgə yığıncaqda ictimai şuranın üzvləri irəli sürülmüş namizədlər içərisindən gizli səsvermə yolu ilə seçilir.

3.2. Birgə yığıncaqda təmsilçilərinin iştirak etməsini istəyən vətəndaş cəmiyyəti institutları seçki gününə on gün qalanadək, həmin şəxslər barədə zəruri məlumatları (adı, soyadı, atasının adı, təvəllüdü, yaşayış yeri, əlaqə vasitəsi) göstərməklə, seçki komissiyasına müraciət etməlidirlər.

3.3. Seçki komissiyası vətəndaş cəmiyyəti institutlarının müraciəti əsasında birgə yığıncaqda iştirak edəcək təmsilçilərin qeydiyyatını aparır.

3.4. Birgə yığıncaq zamanı vətəndaş cəmiyyəti institutlarının təmsilçilərinə seçki komissiyası tərəfindən hazırlanmış və

namizədlərin adı qeyd olunmuş seçki vərəqələri (seçki bülleteni) paylanılır.

3.5. Birgə yığıncağın keçirildiyi otağın mərkəzində, hamının sərbəst görə biləcəyi yerdə seçki qutusu qoyulur.

3.6. Birgə yığıncaqda iştirak edən vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri fəaliyyət göstərəcək ictimai şuranın üzvlərinin say həddinə uyğun və ya bundan az sayda namizədə səs verirlər.

3.7. Səsvermə təmsilçilərin seçki vərəqəsində lehinə səs verəcəkləri namizədlərin soyadından sağdakı xanalarda işarə qoyub həmin vərəqəni seçki qutusuna atmaları ilə həyata keçirilir.

3.8. İşarə qoyulmuş xanaların sayı ictimai şura üzvlərinin say həddindən çoxdursa və ya boş xanalarda heç bir işarə qoyulmamışdırsa, seçki vərəqəsi etibarsız sayılır.

3.9. Birgə yığıncaqda iştirak edənlərin yarıdan çoxunun səsini toplamış şəxslər ictimai şuranın tərkibinə seçilmiş hesab olunurlar.

3.10. İctimai şuraya seçilmək üçün yetərli səs toplamış namizədlərin sayı fəaliyyət göstərəcək ictimai şuranın üzvlərinin say həddindən az olduqda, üç gün müddətində boş qalan yerlər üçün təkrar seçkilərin keçirilməsi barədə qərar qəbul edilir. Təkrar seçkilər zamanı ən çox səs toplamış namizədlər boş qalmış yerlərə seçilmiş hesab olunurlar.

3.11. Səsvermə prosesi başa çatdıqdan sonra birgə yığıncaq iştirakçılarının müşahidəsi ilə seçki komissiyasının üzvləri tərəfindən seçki qutuları açılır və seçki vərəqələri sayılır.

3.12. Seçkilərin nəticələri seçkilər keçirilən gün elan edilir və seçki komissiyası tərəfindən nəticələrə dair protokol tərtib olunur.

3.13. İctimai şuraya seçilməmiş namizədlərin seçkilərin nəticəsi və ya keçirilmə prosesi ilə bağlı iradları olarsa, bu barədə müvafiq mərkəzi və yerli icra hakimiyyəti və yerli

özünüidarəetmə orqanlarına müraciət edə və ~~(və ya)~~ məhkəməyə şikayət verə bilərlər.

3.14. Seçki komissiyası tərəfindən seçkilərin nəticələrinə dair protokol tərtib olunduğu gündən iyirmi gün müddətində ilk iclasını keçirməklə ictimai şura fəaliyyətə başlayır.

## 4. Yekun müddəalar

4.1. İctimai şuraya seçilmiş namizədlərə şuraya üzvlüyü təsdiq edən vəsiqələr verilir. İctimai şura üzvlərinin vəsiqələrinin forması mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən təsdiq edilir.

4.2. İctimai şuradakı fəaliyyətinə görə üzvlərə əməkhaqqı, qonorar, kompensasiya və başqa ödənişlər verilmir.

4.3. Seçkilər nəticəsində formalaşdırılmış ictimai şuralar Qanunun 7-ci-11-ci maddələri ilə müəyyən olunmuş qaydada fəaliyyət göstərirlər.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 21 noyabr 2014-cü il tarixli **375** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 06 dekabr 2014-cü il, № 267, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1654**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 21 noyabr 2014-cü il tarixli **375** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 06 dekabr 2014-cü il, № 267, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1654**) ilə 2.1-ci bənddə "**seçilməlidir**" sözü "**seçilir**" sözü ilə əvəz edilmişdir.

[2] 21 noyabr 2014-cü il tarixli **375** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 06 dekabr 2014-cü il, № 267, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1654**) ilə yeni məzmunda 2.11.4-cü yarımbənd əlavə edilmişdir.

[3] 21 noyabr 2014-cü il tarixli **375** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 06 dekabr 2014-cü il, № 267, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1654**) ilə 2.14-cü bənddə "**2.12-ci**" sözləri **"2.10-cu"** sözləri ilə əvəz edilmişdir.

[4] 21 noyabr 2014-cü il tarixli **375** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 06 dekabr 2014-cü il, № 267, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1654**)) ilə 2.16-cı və 3.13-cü bəndlərdən "(və ya)" sözləri çıxarılmışdır.

**“Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN
QƏRARI

“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 89 nömrəli Fərmanının 1.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar 2014-cü il iyunun 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 30 may 2014-cü il
№ 172

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin
2014-cü il 30 may tarixli 172
nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

# Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi

# Q A Y D A S I

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 19-cu maddəsinə əsasən hazırlanmışdır və mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi qaydasını müəyyən edir.

1.2. Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hüquqi aktlarının layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşəbbüsçüsü həmin mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyəti institutları, ictimai şuralar və ayrı-ayrı vətəndaşlar ola bilərlər.

1.3. Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə həmin hüquqi aktların layihələrinə dair ictimaiyyətlə məsləhətləşmələrin keçirilməsi və vətəndaşların məlumatlandırılması məqsədi ilə aidiyyəti orqanların səlahiyyətli nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin iştirakı ilə keçirilir.[1]

1.4. Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hüquqi aktlarının layihələrinə dair ictimai müzakirə həmin orqanlar tərəfindən ictimai əhəmiyyətli hüquqi aktların qəbulu zamanı müvafiq məsələlər barəsində əhalinin müxtəlif təbəqələrinin təkliflərinin hazırlanması məqsədi ilə aidiyyəti dövlət orqanlarının səlahiyyətli nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin iştirakı ilə keçirilir.

## 2. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili

2.1. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hüquq xidmətlərinin iştirakı ilə həmin layihələri hazırlayan müvafiq struktur bölmələri tərəfindən təşkil edilir.

2.2. Mərkəzi və yerli icra hakimiyyəti orqanları hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili üçün:

2.2.1. hər biri özünün rəsmi internet səhifəsində xüsusi bölmə ayırır və həmin səhifədə “elektron hökumət” portalına keçidi təmin edir;

2.2.2. mərkəzi icra hakimiyyəti orqanı hazırladığı normativ hüquqi aktların layihələrini razılaşdırılması üçün göndərildiyi andan özünün rəsmi internet səhifəsinin xüsusi bölməsində ~~və “elektron hökumət” portalında~~ yerləşdirir;[2]

2.2.3. yerli icra hakimiyyəti orqanı hazırladığı normativ xarakterli aktların layihələrini razılaşdırılması üçün göndərildiyi andan özünün rəsmi internet səhifəsinin xüsusi bölməsində yerləşdirir;

2.2.4. vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin rəy, irad və təkliflərinin alınması

məqsədi ilə layihələrin 60 gün, yuxarı icra orqanı tərəfindən normativ hüquqi aktın layihəsinin hazırlanması üçün 3 ay və ya daha az müddət müəyyən edildikdə, 10 gün müddətində həmin orqanların rəsmi internet səhifəsinin xüsusi bölmələrində qalmasını təmin edirlər;

2.2.5. mərkəzi icra hakimiyyəti orqanının rəsmi internet səhifəsinin xüsusi bölməsində normativ hüquqi aktın layihəsi ilə birlikdə layihənin Azərbaycan Respublikası Prezidentinin hansı aktının icrası məqsədi ilə qəbul olunduğu, ictimai dinləmənin və müzakirənin vaxtı və keçirilməsi müddəti, rəy, irad və təkliflərin təqdim olunması qaydası, onlara baxılması və nəticələrin açıqlanacağı müddətlər barədə məlumatı yerləşdirirlər;[3]

2.2.6. yerli icra hakimiyyəti orqanının rəsmi internet səhifəsinin xüsusi bölməsində normativ xarakterli aktın layihəsi ilə birlikdə layihənin hansı normativ hüquqi akt əsasında qəbul olunması və həmin normativ hüquqi aktın müvafiq norması, ictimai dinləmənin və müzakirənin vaxtı və keçirilməsi müddəti, rəy, irad və təkliflərin təqdim edilməsi qaydası, onlara baxılması və nəticələrin açıqlanacağı müddətlər barədə məlumatları yerləşdirirlər;

2.2.7. vətəndaş cəmiyyəti institutlarının, ayrı-ayrı vətəndaşların, mütəxəssis və ekspertlərin hüquqi akt layihəsinə dair verdikləri rəy, irad və təkliflərin özünün rəsmi internet səhifəsinin xüsusi bölməsində saxlanılmasını təmin edir və digər istifadəçilərə bu rəy, irad və təkliflərlə tanış olmaq imkanını yaradırlar;

2.2.8. layihələrə dair təqdim olunmuş rəy, irad və təkliflərə baxılmasının nəticələri barədə ictimaiyyəti məlumatlandırır, rəy, irad və təkliflər nəzərə alınmaqla layihədə dəyişikliklər edildiyi halda layihənin yenilənmiş mətnini həmin orqanların rəsmi internet səhifəsində yerləşdirirlər;

2.2.9. ictimai dinləmə və ictimai müzakirədə aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətli nümayəndələrinin məlumatlandırılması məqsədi ilə ictimai dinləmə və ictimai müzakirənin keçiriləcəyi rəsmi internet səhifəsinin

ünvanı, vaxtı və keçirilməsi müddəti barədə onlara rəsmi bildiriş göndərirlər.[4]

*2.2-1. Aidiyyəti orqanların, vətəndaş cəmiyyəti institutlarının və ayrı-ayrı vətəndaşların təklifi və ya öz təşəbbüsü əsasında ictimai dinləmə və müzakirəni təşkil edən dövlət orqanının qərarı ilə hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirələr yığıncaq formasında keçirilə bilər. Bu halda ictimai dinləməni və ictimai müzakirəni təşkil edən dövlət orqanı belə yığıncağın vaxtı, müddəti, keçiriləcəyi yer, keçirilməsi qaydası və nəticələrin açıqlanacağı müddətlər barədə məlumatı öz internet saytında yerləşdirir. Belə yığıncaqda aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətli nümayəndələrinin, mütəxəssis və ekspertlərin iştirakının təmini məqsədi ilə onlara ictimai dinləmə və müzakirəni təşkil edən dövlət orqanı tərəfindən yığıncağın keçirilməsi vaxtı və yeri göstərilməklə rəsmi dəvət göndərilir.*[5]

2.3. İctimai dinləmə və ya ictimai müzakirəyə çıxarılan hüquqi aktın layihəsinə onun qəbul olunması zərurətinin əsaslandırılması, hüquqi tənzimləmənin təsirinin qiymətləndirilməsi əlavə edilməlidir. Azərbaycan Respublikasının Prezidentinə təqdim ediləcək hüquqi aktların layihələri dövlət büdcəsinin vəsaitindən istifadəni nəzərdə tutarsa, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin maliyyə ekspertizasının rəyi də (əldə olunduqdan sonra) əlavə edilməlidir.

2.4. İctimai dinləmə və ictimai müzakirələrə bu sahədə fəaliyyət göstərən ekspertlərin və mütəxəssislərin cəlb edilməsi təmin olunmalıdır.

## 3. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi

3.1. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinin ictimai dinləmə və

ictimai müzakirəsi açıq keçirilir. Fəaliyyət qabiliyyətinə malik istənilən vətəndaş və vətəndaş cəmiyyəti institutları ictimai dinləmə və ictimai müzakirələrdə iştirak edə və müzakirə olunan məsələ barədə öz mülahizələrini bildirə bilərlər.

3.2. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirələrin keçirilməsi zamanı vətəndaş cəmiyyəti institutlarının, ~~ayrı-ayrı vətəndaşların,~~ mütəxəssis və ekspertlərin ~~hüquqi cəhətdən~~ əsaslandırılmamış rəy, irad və təkliflərinə baxılmır.[6]

3.3. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirələrin keçirilməsi zamanı vətəndaş cəmiyyəti institutları, ayrı-ayrı vətəndaşlar, mütəxəssis və ekspertlər tərəfindən verilmiş aşağıdakı rəy, irad və təkliflər nəzərə alınmır:

3.3.1. daha üstün hüquqi qüvvəyə malik hüquqi aktlarla ziddiyyət təşkil edən rəy, irad və təkliflər;

3.3.2. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 8-ci maddəsi ilə müəyyən edilmiş normayaratma fəaliyyətinin əsas prinsiplərinə zidd olan rəy, irad və təkliflər;

3.3.3. hüquqi aktın layihəsində sui-istifadə amilləri yaradacaq rəy, irad və təkliflər;

3.3.4. çoxun azı ehtiva etməsi prinsipi nəzərə alınaraq, yalnız müəyyən mənafelər qrupunun maraqlarını müdafiə edən rəy, irad və təkliflər;

3.3.5. hüquqi tənzimləmə dairəsinə aid olmayan rəy, irad və təkliflər;

3.3.6. verilən rəy, irad və təkliflərdə göstərilən fikirləri tam əhatə edən qanunvericilik normaları mövcud olduqda.

3.4. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirə zamanı verilmiş təkliflərə *"Vətəndaşların müraciətləri* haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxılır. Müvafiq fikir, rəy və təkliflər bu Qaydanın

3.3-cü bəndi ilə müəyyən edilmiş tələblərlə ziddiyyət təşkil etmədiyi və iqtisadi, maliyyə *və ekoloji* baxımından məqsədəuyğun hesab edildiyi halda layihədə nəzərə alınır.[7]

3.5. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirə zamanı verilmiş müvafiq rəy və təkliflər bu Qaydanın 3.3-cü bəndinə əsasən məqsədəuyğun hesab edilmədikdə, rəy və təklifi verən şəxsə bu barədə əsaslandırılmış cavab göndərilir və ya şəxsən təqdim olunur.

3.6. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi üzrə digər məsələlər Qanunun 13-cü və 14-cü maddələri ilə müəyyən edilmiş tələblərə uyğun yerinə yetirilir.

## 4. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin yekun sənədi

4.1. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmənin yekun sənədi dinləmə zamanı açıqlanmış əsas fikir, rəy və təkliflərin icmalı formasında qəbul edilir.

4.2. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai müzakirənin yekun sənədi rəy və təkliflər formasında qəbul edilir.

~~4.3. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin yekun sənədləri Qanunun 15-ci maddəsi ilə müəyyən edilmiş tələblərə uyğun olmalıdır.~~[8]

## 5. Yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili və keçirilməsi

5.1. Yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili, keçirilməsi və yekun sənədinin qəbul edilməsi bu Qaydanın 5.2-ci bəndində göstərilən xüsusiyyətlər nəzərə alınmaqla, 2-ci – 4-cü hissələrinə uyğun həyata keçirilir.

5.2. Yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili və keçirilməsi zamanı aşağıdakı xüsusiyyətlər nəzərə alınır:

5.2.1. həmin hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirələrdə müvafiq bələdiyyə ərazisində yaşayan və ya fəaliyyət göstərən vətəndaşlar və vətəndaş cəmiyyəti institutları iştirak edə bilərlər;

5.2.2. həmin hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirə yerli özünüidarəetmə orqanlarının hüquq məsələləri daimi komissiyasının və ya bələdiyyə sədrinin müəyyən etdiyi bələdiyyə üzvü və ya qulluqçusunun iştirakı ilə müvafiq bələdiyyə sədrləri tərəfindən təşkil edilir.[9]

*5.2.3. Şəhər və şəhər rayonu bələdiyyələrində bələdiyyə sədri hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili məqsədi ilə bu Qaydanın 2.2.1-ci, 2.2.3-cü, 2.2.4-cü, 2.2.6 - 2.2.9-cu yarımbəndləri ilə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsini təmin edir. Qəsəbə və kənd bələdiyyələrində bələdiyyə sədri hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili məqsədi ilə kənd ərazisində hamının görə biləcəyi yerdə yerləşdirilən məlumat lövhəsində normativ xarakterli aktın layihəsi ilə birlikdə layihənin hansı normativ hüquqi akt əsasında qəbul olunması və həmin normativ hüquqi aktın müvafiq norması, ictimai dinləmənin və müzakirənin vaxtı, müddəti, keçiriləcəyi yer, rəy,*

*irad və təkliflərin təqdim edilməsi qaydası, onlara baxılması və nəticələrin açıqlanacağı müddətlər barədə məlumatların göstərilməsini təmin edir.*[10]

5.3. Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi ilə bələdiyyələrin səlahiyyətinə aid edilməmiş məsələlər, bələdiyyənin rayon və şəhər inzibati ərazi tərkibindən çıxmaq, muxtariyyət elan etmək, bələdiyyələrin dövlət tərəfindən müəyyən edilmiş sərhədlərini dəyişdirmək məqsədi daşıyan layihələr ictimai dinləməyə və ictimai müzakirəyə çıxarıla bilməz.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 21 noyabr 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 07 dekabr 2014-cü il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1655**)
2. 19 aprel 2016-cı il tarixli **163** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 3 may 2016-cı il, № 94, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 4, maddə 818)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 21 noyabr 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 07 dekabr 2014-cü il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1655**) ilə 1.3-cü və 1.4-cü bəndlərdə "**yığıncaqların keçirilməsidir**" sözləri "**keçirilir**" sözü ilə əvəz edilmişdir.

[2] 21 noyabr 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 07 dekabr 2014-cü il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1655**) ilə 2.2.2-ci yarımbənddən "**və "elektron hökumət" portalında**" sözləri çıxarılmışdır.

[3] 21 noyabr 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 07 dekabr 2014-cü il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1655**) ilə 2.2.5-ci və 2.2.6-cı yarımbəndlərdə "**ictimai dinləmələrin qrafiki və keçiriləcəyi yer və ictimai müzakirənin müddəti, keçirilməsi qaydaları**" sözləri "**ictimai dinləmənin və müzakirənin vaxtı və keçirilməsi müddəti**" sözləri ilə əvəz edilmişdir.

[4] 21 noyabr 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 07 dekabr 2014-cü il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1655**) ilə 2.2.9-cu yarımbənddə "**iştirakının təmini**" sözləri "**məlumatlandırılması**" sözü ilə, "**keçirilmə vaxtı və yeri**" sözləri "**keçiriləcəyi rəsmi internet səhifəsinin ünvanı, vaxtı və keçirilməsi müddəti**" sözləri ilə əvəz edilmişdir.

[5] 21 noyabr 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 07 dekabr 2014-cü il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1655**) ilə 2.2-1-ci bənd əlavə edilmişdir.

[6] 21 noyabr 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 07 dekabr 2014-cü il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1655**) ilə 3.2-ci bənddən "**ayrı-ayrı vətəndaşların,**" və "**hüquqi cəhətdən**" sözləri çıxarılmışdır.

[7] 21 noyabr 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 07 dekabr 2014-cü il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1655**) ilə 3.4-cü bənddə "**, sosioloji, ekoloji və sair zəruri hallar**" sözləri "**və ekoloji**" sözləri ilə əvəz edilmişdir.

19 aprel 2016-cı il tarixli **163** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 3 may 2016-cı il, № 94, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 4, maddə 818)** ilə "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası"nın 3.4-cü bəndində "**Vətəndaşların müraciətlərinə baxılması qaydası**" sözləri "**Vətəndaşların müraciətləri**" sözləri ilə əvəz edilmişdir.

[8] 21 noyabr 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 07 dekabr 2014-cü il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1655**) ilə 4.3-cü bənd ləğv edilmişdir.

[9] 21 noyabr 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 07 dekabr 2014-cü il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1655**) ilə 5.2.2-ci yarımbəndə "**komissiyasının**" sözündən sonra "**və ya bələdiyyə sədrinin müəyyən etdiyi bələdiyyə üzvü və ya qulluqçusunun**" sözləri əlavə edilmişdir və həmin yarımbənddə "**həmin layihələri hazırlayan müvafiq komissiyalar**" sözləri "**müvafiq bələdiyyə sədrləri**" sözləri ilə əvəz edilmişdir.

[10] 21 noyabr 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 07 dekabr 2014-cü il, № 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1655**) ilə 5.2.3-cü yarımbənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~5.2.3. yerli özünüidarəetmə orqanlarının hüquq məsələləri daimi komissiyası və ya bələdiyyə sədrinin müəyyən etdiyi bələdiyyə üzvü və ya qulluqçusu hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili məqsədi ilə bu Qaydanın 2.2.1-ci, 2.2.3-cü, 2.2.4-cü, 2.2.6 - 2.2.9-cu yarımbəndləri ilə müəyyən edilmiş tədbirləri həyata keçirir.~~